*Bütün dinlərdə Qiyamətə kimi xilaskarın gəlib bəşəriyyəti Allah yoluna dəvət edəcəyi, insanları zülmdən qurtarıb ədaləti bərqərar edəcəyi şəxslər barədə danışılır*

*Qeyd olunduğu kimi, məhədəviyyət etiqadı bütün dinlərə məxsusdur. İstər İbrahimi dinlər (Yəhudilik, xristianlıq və İslam) istərsə də qeyriləri (məsələn, buddizm) Qiyamətə kimi xilaskarın gəlib bəşəriyyəti Allah yoluna dəvət edəcəyi, insanları zülmdən qurtarıb ədaləti bərqərar edəcəyi şəxslər barədə danışılır. Dinlərdə məhdəviyyət ideyası barədə təsəvvür yaratmaq üçün yalnız İbrahimi dinlərdən bəhs etməklə kifayətlənmək məcburiyyətindəyik.*

*Yəhudi dininə əsasən, tarixdə iki messiya, yəni məhdi olub ki, Bəni-İsrail qəbiləsinə zülmdən nicat verib və onları "vəd olunmuş torpağ"a (Fələstinə) qaytarıb. Qiyamətə qədər üçüncü messiyanın gəlişi ilə yəhudilər yenə İsrail dövlətini bütün Fələstin ərazilərində bərqərar edəcək və "seçilmiş millət"i (yəhudiləri) bəşəriyyət üzərində hakim edəcək. Bəni-İsrailin Allahın digər insanların arasından seçdiyi və üstün qərar verdiyi bir millət olduğuna etiqad bəsləyən yəhudilər həm özlərini bir millət olaraq messiya görürlər, həm də onlara bu şəraiti yaradacaq konkret şəxsin messiya olduğuna inanırlar. Bu baxımdan, yəhudi messiyası gələndə yəhudilər öz layiqli yerini tutacaq, bütün bəşərə düzgün yaşamağı öyrədəcək, bununla razılaşmayanlar isə məhv ediləcək.*

*Xristianlığa əsasən, İsa Məsih(ə) çarmıxa çəkilib əziyyətlə ölməyi ilə bütün bəşəriyyətin günahını yuyub. Beləliklə də, hər kimin qəlbində İsa Məsihə(ə) qarşı məhəbbət olsa və hər kim İsanın(ə) Allahın oğlu olduğuna iman gətirsə günahlardan azad olmuş olar. İsa(ə) öldü, ancaq onun ikinci qayıdışı gözlənilir. İkinci gəlişə xristianlar "diriliş" deyir və həmin dövrdə İsa(ə) Allahın səltənətini bərqərar etməklə "Yer Üzərində Cənnət" yaradacaq. Ancaq bundan öncə Hz.İsa(ə) Antixristə, yəni bəşəriyyəti zülm altında saxlayan bir şəxs üzərində qələbə çalmalıdır.*

*İslam Peyğəmbəri (s) də Məhdinin gəlişi barədə xəbər veribdir. Axirəz-zamanda, yəni Qiyamətə yaxın dövrdə Peyğəmbər nəslindən bir şəxs Məkkədə zühur edəcək və bəşəriyyətə zülmdən nicat verəcək. Bütün dünya onun gəlişinə heyran olacaq, onunla birgə qeybdə olan bəzi peyğəmbərlər də zühur edəcək ki, bu da bəşəriyyətin İslama üz tutmasına səbəb olacaq. Bu cür peyğəmbərlərdən biri də Həzrət İsadır(ə). İslam əqidəsində də, Məhdi(ə.f) dünyanı zülmə qərq etmiş Dəccalla savaşacaq. Mehdinin(ə.f) hakim olacağı cəmiyyətdə heç bir məxluqa zülm olunmayacaq, hətta onun hakimiyyətini qəbul etməyən qövmlər əmin-amanlıq içində yaşayacaqlar.*

*Adətən yalnış olaraq məhdəviyyəti yalnız bir məzhəbə aid edirlər, hərçənd ki, İslam məzhəblərinin hamısı yekdilliklə Məhdinin(ə.f) gəlişinə etiqad bəsləyir. Quran açıqca bəyan edir ki, yer üzü salehlərə miras olaraq qalacaq. Sadəcə, əhli-sünnənin Məhdinin(ə.f) hələ anadan olacağına, cəfəri məzhəbinin isə Məhdinin 12-ci imamın(ə.f) timsalında anadan olub və qeybə çəkildiyini bildirirlər.*

# ZÜHURUN İNTİZARI



*"İlahi, biz elə bir əzəmətli dövlətin şövqündəyik ki, onun sayəsində İslam və müsəlmanlar öz izzətini geri qaytarsın, nifaq və münafiqlər (ikiüzlülər) zillətə düçar olsun. O dövlətdə bizi itaətə dəvət edənləri öz yolunda rəhbər et".*

*("İftitah" duasından)*

"İftitah" duasının oxunması çox tövsiyə edilmiş cümlələrindən biri də əsrin sahibi həzrət İmam Zamanın (Allah zühurunu tezləşdirsin) zühuru zamanı qurulacaq dövlətin arzusunda olmaq barəsindədir. Eyni zamanda, duanın bu hissəsindəki cümlələrdə İslam hökumətinin məqsədi və bizim vəzifələrimiz göstərilmişdir. Xoşbəxtlikdən həzrət İmam Zamanı (ə.f.) tanımaq və onun zühurunun intizarını çəkmək neməti hamımıza nəsib olmuşdur.

Həzrət Mehdinin (ə.f.) zühuruna inam bütün müsəlmanların şərik olduqları inanclardandır (hətta qeyri-müsəlmanlarda da bir növ qurtuluş və xilaskarın zühurunun intizarı məsələsi açıqlanmışdır.). İmamət mövzusunun bəzi məsələlərində sünni qardaşlarla aramızda fikir ayrılığı olmasına baxmayaraq, həzrət Mehdinin (ə.f.) zühuruna inanc məsələsində fikir ayrılığı çox azdır.

Bir çox qardaş sünni alimləri həzrət Mehdinin (ə.f.) barəsində kitab yazmış, bu barədə olan hədislərin təvatür həddində olduğunu (yəni bu hədislərin həzrət Peyğəmbər (s) tərəfindən buyurulduğuna heç bir şəkk-şübhə olmadığını) etiraf etmişlər. Lakin o həzrətin (ə.f.) şəxsi xüsusiyyətləri barəsində fikir ayrılığı mövcuddur. Bəzi sünni qardaşlar axırzamanda həzrət Peyğəmbərin (s) ailəsindən Mehdi adlı bir şəxsin zühur edəcəyi inancındadırlar. Lakin onun kimliyi, kimin övladı olması və doğulub-doğulmaması barəsində bizimlə eyni fikirdə deyillər. Onlardan bəziləri həzrət Mehdinin (ə.f.) axırzamanda doğulacağına inam bəsləyirlər.

Doğrudur, sünni qardaşların bəziləri o həzrətə münasibətdə bizimlə eyni inancı bölüşürlər. Yəni həzrət Mehdinin (ə.f.) həzrət Fatimə (ə) ilə həzrət Əlinin (ə) nəslinin on birinci övladı olduğuna inanırlar. Hətta bəziləri o həzrətin doğulduğunu və həyatda olduğunu, eyni zamanda, bəzi şəxslərin onunla görüşdüyünü təsdiqləyir, həzrətlə görüşmüş şəxslərin adını da çəkirlər.

Beləliklə, o həzrətə inananlar təkcə Əhli-beyt (ə) tərəfdarları deyil. Doğrudur, digər müsəlmanlar o həzrətin Allah Rəsulunun (s) xəlifəsi, ilahi elm və qüdrətə malik və Allahın təkvini (təbii) vilayətinə sahib olduğu inancında deyillər. Necə ki, bəzi sünni qardaşlarımız (xüsusi ilə şafei firqəsi) digər məsumları alim və əziz Peyğəmbərimizin (s) övladları kimi qəbul edib, hörmət saxlayır və onlara böyük məhəbbət bəsləyirlər. Lakin onların məsum və "vilayət məqamı"nda (Allah tərəfindən təyin olunmuş və itaəti vacib olan imam, rəhbər) olduğu etiqadında deyillər.

Lakin bütün bu inanclarla yanaşı, sünni qardaşlarımız, demək olar, onun zühurunu unutmuşdur. Onları həzrət Mehdi (ə.f.) dövlətinin intizarını çəkənlərdən hesab etmək olmaz. Beləliklə, təkcə Əhli-beyt (ə) məzhəbi o həzrətin zühuru intizarında dəqiqələri sayır.

Bizim ilk növbədə Əsrin İmamı (ə.f.) və onun haqq dövlətinin zühurunu gözləməkdə məqsədimizin nə olduğunu və o həzrətin zühurunda iştirak etmək istəyimizə hansı amilin səbəb olduğunu bilməyimiz lazımdır.

İkincisi, qeyb və intizar dövründə vəzifəmizin nə olduğunu, o həzrətin həqiqi yolunu gözləyənlərdən olmaq üçün nə etməli olduğumuzu bilməliyik.

Üçüncüsü, isə onun dövləti qurulduqdan sonra hansı rolu oynayacağımız barədə düşünməliyik.

### Onu nə üçün gözləyirsən?

İnsanın batini aləmi o qədər mürəkkəbdir ki, bəzən insan özü də bu aləmin incəliklərindən xəbərsiz qalır. Bəzən insan bir şeyi sevsə də, nə üçün sevdiyini bilmir. Həzrət Mehdinin (ə.f.) zühuru və o həzrətin hakimiyyətinin qurulması arzusunda olma səbəbləri də müxtəlifdir. Məsələn, avam kütlə, əsasən, zühur dövründə bütün ehtiyacların müftə ödənəcəyini, bir növ salavatla təmin ediləcəyini əsas götürərək, həzrətin zühurunu gözləyir. Guya zəhmətlə təmin ediləsi ehtiyaclar o həzrətin zühuru dövründə həzrət Məhəmməd (s) və onun məsum ailəsinə

(ə) salavat göndərməklə təmin ediləcək. Bəli, müxtəlif qruplar müxtəlif səbəblərdən Əsrin İmamının (ə) zühurunu gözləyir və fərqli fikirlərlə intizar çəkirlər.

Bir qrup, həzrət İmamın (ə) gəlib onları xilas edərək çətinliklərdən uzaqlaşdıracağı ümidilə onun yolunu gözləyir. Həqiqətən, bəzi dini vəzifələr, xüsusilə ictimai vəzifələr, məsələn, yaxşılığa dəvət və pisliklərdən çəkindirmək, zülm və fəsadla mübarizə çətin işdir. Mümkündür ki, bəziləri həzrətin gəlməsi ilə bu zəhmətlərin onların boynundan götürüləcəyini təsəvvür edərək onun gəlişini istəyirlər.

Bəziləri isə zülmdən əziyyət çəkdikləri üçün hamını öz haqqına çatdıracaq və zülmkarların kökünü kəsəcək bir dövlətin qurulmasının intizarını çəkirlər (bunlar ədalət və bərabərlik tərəfdarlarıdırlar).

Başqa bir qrup isə İslam və haqq dinin qələbəsi, ilahi hökmlərin həyata keçməsi, tərk olunmuş hökmlərin bərpa edilməsi, həzrət Peyğəmbərin (s) sünnəsinin (gətirdiyi qayda-qanunların) dirçəldilməsi, küfr və şirk nişanələrinin məhv olması üçün həzrət Mehdinin (ə.f.) zühurunun intizarını çəkirlər.

Hansı məqsədlə Əsrin İmamının (ə.f.) intizarını çəkdiyimizi bilmək üçün öz daxilimizə nəzər salmalıyıq. Salavat ilə əldə edilən çörək istəyirik, yoxsa zülmkarların zülmündən bezmişik? Dini vəzifələr bizə ağırlıq edir, yoxsa İslam və müsəlmanlar təhlükədə olduğu üçün zühurun intizarındayıq? İntizar çəkməyimizdə həqiqi məqsədimizin bunlardan hansı olduğunu müəy-yənləşdirməliyik.

Əgər məqsədimiz əvvəlki üç amil olarsa, həqiqətən, qəlbimiz başqalarına yox, özümüzə yanmışdır! Belə olan halda, əslində, biz həzrət Höccətin yox, öz rahatlığımızın intizarını çəkmiş oluruq! Əgər imam yox, başqa bir şəxs bizim istəklərimizi təmin edərsə, onu da sevib, yolunu gözləyəcəyik. Beləliklə, İmam Zaman (ə) və onun zühurunun əsl mahiyyəti bizim üçün əhəmiyyətsiz olur, əsas məqsədimizsə öz şəxsi maraqlarımız olur. Rahatlığa can atmaq və tənbəllikdən doğan intizarın nə faydası var?! Əgər bizim vəzifələrimizin boynumuzdan götürüləcəyi, Əsrin İmamının (ə.f.) özünün küfr və nifaqla vuruşub, yaxşılığa dəvət edib pisliklərdən çəkindirəcəyi, bizimsə heç bir zəhmət çəkmədən bu dövlətin imkanları və sərvətlərindən faydalanacağımız günün intizarını çəkiriksə, əslində, belə bir intizar dəyərsiz və qiymətsiz hesab edilir. İnsanın İslam dininin qələbəsi, onun ucalması və yayılması üçün zühur intizarında olub, həzrət Mehdinin (ə.f.) zühurunu istəməsi həqiqi və dəyərli intizardır!

Hədislər belə bir intizarın dəyərli və əhəmiyyətli olduğunu təsdiqləyir. Həzrət Höccətin (ə) dünyəvi inqilabı və hökuməti sayəsində əmin-amanlıq və asayiş, nemət bolluğu, zülm və zalımların məhvi, bədbəxtlik və yoxsulluğun aradan götürülməsi gerçəkləşəcəksə də, bütün bunlar o həzrətin, zühurunun intizarını çəkmək üçün möminin əsas məqsədi olmamalıdır.

Duanın bu hissəsində insanın həm zühuru




gözləməkdə məqsədi, həm də həzrətin hökumətinin hədəfi açıqlanmışdır:

“İlahi, biz elə bir əzəmətli dövlətin şövqündəyik ki, onun sayəsində İslam və müsəlmanlar öz izzətini geri qaytarsın, nifaq və münafiqlər (ikiüzlülər) zillətə düçar olsun. O dövlətdə bizi itaətə dəvət edənləri öz yolunda rəhbər et”.

Həzrətin zühuru zamanı da vəzifələrimizdən əl çəkməməliyik. Zühurdan sonra insanların təbliğsiz iman gətirib yaxşı əməllər edəcəyini düşünmək düzgün deyil. Elə həmin zamanda da cəmiyyətin dəvətə, təlim və tərbiyəyə ehtiyacı olacaq. Ümid edirik ki, o zaman da həzrətin məqsədlərinin yerinə yetirilməsində qabaqcıllardan olub, xalqı ona doğru dəvət etməklə vəzifələrimizi yerinə yetirəcəyik.

“Arzu edirik ki, bu hökumət sayəsində dünya və axirət izzətinə, üstünlüyünə çataq”.

Həqiqi intizar çəkən mömin kimi öhdəmizdə hansı vəzifələr var? Həzrətin zühuru zamanı öz rolumuzu düzgün ifa etmək üçün nə etməliyik?

Həqiqi intizar əhlinin ən mühüm vəzifəsi bacardığı qədər həqiqəti tanıyıb ona əməl etməsidir. Bununla da o, çətinliklərin öhdəsindən asanlıqla gələ bilər. Yalnız belə bir şəxs həzrət Mehdinin (ə.f.) zühuru zamanı cəmiyyətə rəhbərlik arzusunda ola bilər. Haqqı tanıyıb, əməldə səhlənkarlıq edən kəs başqalarına necə rəhbərlik edə bilər?! Beləliklə, biz həzrətin zühurundan öncə özümüzü həmin günə hazırlamalı, elm və əməl baxımından kamilləşməliyik.

### Keçmiş ümmətlər bizə ibrətdir

Tarix boyu ilahi ümmətlərə haqq dövlət vədi verilmişdir və onlar həmişə bunun zühurunu gözləmişlər. Lakin bu dövlətin zühurundan sonra onların öz iddialarında sadiq olmadıqları aydın olmuşdur. Misal üçün, Fironun zamanında İsrail övladlarına həzrət Musanın (ə) dünyaya gələcəyi və zühur edəcəyi vəd edilmişdi (bu əhvalat Quranda təkrar-təkrar qeyd edilir). Firon İsrail övladlarını o qədər sıxıntıda saxlamışdı ki, çox az millətlər belə əziyyət görmüşdü. Onlara o qədər işgəncə verildi ki, alimlər və

saleh insanlar bir yerə toplaşıb, xalqı həzrət Musanın (ə) zühurunun yaxınlaşması üçün dua etməyə dəvət etdilər. Bu mövzuda buyurulan hədislərə əsasən, İsrail övladlarının həddi aşmış göz yaşları və ah-nalələrinə görə həzrət Musanın (ə) zühuru yaxınlaşdı. O, dünyaya gəldi, böyüdü və bir müddət sonra Fironun əleyhinə qiyam qaldırdı. Sonra İsrail övladlarını onun əlindən xilas edib Nil çayından keçirdi. Onlar öz gözləri ilə Firon və tərəfdarlarının bu qədər əzəmətə malik olmalarına baxmayaraq, çaydan keçə bilmədiklərini və oradaca qərq olduqlarını gördülər.

Fironun zülmündən xilas olub Allaha bəndəlik etmək üçün həzrət Musanın (ə) zühurunun tezləşməsini istəyənlər Fironun cəngindən azad olduqdan sonra həzrət Musa (ə) dünyadan köçənə qədər bir çox ləyaqətsiz işlər gördülər. Onları Fironun zülmündən qurtardığı üçün Allaha təşəkkür etmək əvəzinə, naşükürlük etdilər. Eyni zamanda, uzun illər intizarını çəkdikləri həzrət Musanın (ə) göstərişlərinə qulaq asmaq əvəzinə, pis işlər görüb, ondan yersiz tələblər etdilər. Onların birinci səhvi bu idi: Misirdən Fələstinə getdikləri yolda əhalisi bütpərəst olan bir şəhərə çatdılar. Həzrət Musanın (ə) yanına gəlib ona dedilər: "Sənin inandığın və bizi ibadətinə çağırdığın Allahı görmürük, biz bu bütpərəstlərin məbudu kimi bir Allah istəyirik, "Bizə onların sitayiş etdikləri bütlər kimi bir büt düzəlt!" (əl-Əraf, 138)

Bunlar Fironun zülmündən təngə gəlib Allahdan həzrət Musanın (ə) zühurunun tezləşməsini istəyənlər idi.

Bu hadisədən sonra həzrət Musa (ə) ibadət üçün Tur dağına getdi. O, orada otuz gün qalmaq üçün dəvət olunmuşdu; amma bu müddət qırx günə qədər çəkdi. O, münacata gedən zaman İsrail övladları Samirinin yanına gedib ona dedilər: "Bizim üçün bir büt düzəlt!" Samiri də onların sözünü qəbul etdi və qızıldan bir buzov düzəltdi. Həzrət Musanın (ə) səbirsizliklə intizarını çəkənlərin sonu belə oldu!

İslam peyğəmbərinə (s) aid bir hadisə də nəql edilir. Hicaz məntəqəsi, xüsusilə də Mədinə ətrafındakı kitab əhlinin bir çoxu İslam peyğəmbərinin (s) zühurunu gözləyirdi. Onlar Mədinə və onun ətrafında toplaşmışdılar ki, o həzrət zühur edən zaman başqalarından daha tez ona iman gətirsinlər. Qurani-Kərim bu barədə buyurur:"Onu öz oğullarını tanıdıqları kimi tanıyırlar". (əl-Bəqərə, 146) İslam peyğəmbərini (s) öz övladlarını tanıdıqları kimi tanıyırdılar (və onun xüsusiyyətlərindən xəbərdar idilər). Lakin o həzrət onları İslam dininə dəvət etdiyi zaman onun hədəflərini öz istəklərinə uyğun görməyib dəvətini qəbul etmədilər.

Bu tarixi hadisələr bizim üçün ibrətamiz dərs hesab edilir. Allah eləməsin ki, biz də həzrət Mehdinin (ə.f.) zühurunun intizarını çəkərkən belə bir aqibətlə üzləşək. Bizim gözəl aqibətli olacağımıza zəmanət verilməyib. Bəzi hədislərdə həzrət Mehdinin (ə.f.) zühurundan sonra bir sıra şəxslərin ona məktub yazaraq – bizim sizə ehtiyacımız yoxdur, – deyəcəkləri bildirilir.

Beləliklə, özümüzü hər cəhətdən islah etməliyik; nəfsi istəklərdən uzaqlaşıb, özümüzü ona, onun gəlişinin qəbuluna hazırlamalıyıq. Əgər o həzrəti seviriksə, onun adını eşitdikdə gözlərimizdən yaş axırsa, yenə də qürurlu olub aqibətimizdən xəbərsiz qalmamalıyıq.

Buna görə də intizar o zaman dəyərli hesab edilir ki, həqiqətən, Əsrin İmamını (ə.f.), onun zühurunu İslam və müsəlmanların izzəti, ilahi hökmlərin dirçəldilməsi üçün istəyək, eyni zamanda, tarix boyu ilahi hökmlərin izah edilməməsindən narahat olaq. Özümüzü həzrətin hökumətini və göstərişlərini qəbul etmək üçün hər bir cəhətdən hazırlamalı və Allahdan bu işdə bizə uğur verməsini istəməliyik.

"İlahi, peyğəmbərimizlə ayrılıqdan (ona və ailəsinə Sənin salamın olsun), mövlamızın qeybdə olmasından, düşmənin çoxluğu və sayımızın azlığından, bizə üz tutmuş üzücü fitnələrdən, dövrümüzün şəraitinin bizim ziddimizə çiyin-çiyinə dayanmasından sənə şikayət edirik".

## Həzrət Peyğəmbər (s) və imamlar (ə) ən dəyərli nemətlərdir

İnsan həmişə öz ehtiyaclarına diqqət yetirməli və onları təmin etmək üçün yalnız uca Allahdan kömək istəməlidir. Bu ehtiyaclar maddi ehtiyaclarla məhdudlaşmır. Daha mühüm ehtiyaclardan biri də əziz Peyğəmbərimiz (s) və o cənabın canişini olan həzrətin varlığına olan ehtiyacımızdır. İnsan, peyğəmbər və imamın hüzurundan məhrum olduqda, ona bütün dünya nemətləri verilsə belə, bu nemətlər həmin məhrumiyyət qarşısında çox cüzi sayılır.

Biz bu ehtiyacı o zaman yaxşı dərk edə bilərik ki, həzrət Peyğəmbər (s) və İmam Zamanın (ə.f.) xeyrini, əhəmiyyətini dərk edək və onların həqiqətdə kim olduğunu anlayaq. Eyni zamanda, bu dəyərli şəxsiyyətlərin varlığından İslam ümmətinə hansı bəhrələrin nəsib olduğunu düşünək, dərk edək.

Məsumların (ə) məqamını və əzəmətini dərk etmək bizim üçün imkansızdır. Yalnız bütün varlıq aləminin onların mübarək varlığına görə yarandığını deyə bilərik: "Ey Məhəmməd! Əgər sən olmasaydın, dünyanı yaratmazdım". Digər imamlar haqqında da belə ifadələr var. (Biharul-ənvar, c. 16, səh. 406, həd. 1)

Bizim bu mövzunu dərk etməyimiz həzrət Peyğəmbər (s) və məsum imamları (ə) nə dərəcədə tanımağımızdan asılıdır.

Onların varlığının əhəmiyyəti barəsində bunu demək kifayət edər ki, əgər imamlar (ə) olmasaydı, İslamın əsasından bir iz qalmazdı; Allahın Rəsulunun (s) vəfatından sonra baş verən çaşqınlıqlar bu iddia üçün yaxşı bir dəlildir. Əgər imamların (ə) 250 illik əziyyət və zəhmətləri olmasaydı, bu gün biz İslam həqiqətlərindən heç bir iz görməzdik. Hətta qardaş sünnə əhlinin də arasında İslam həqiqətlərindən qalmış irslər həqiqi yol göstərən imamların sayəsindədir. İslam dininin qorunmasının səbəbkarı sübh namazını şərabın məstliyi ilə, cümə namazını isə cümə axşamı qılan hakim və



xəlifələr deyillər. Şəhidlər sər-vərinin (həzrət İmam Hüseynin (ə)) qanı və digər imamların (ə) fədakarlıqları İslamın davamlılığına səbəb oldu.

Doğrudur, hidayət imamlarının (ə) bərəkəti yalnız öz zamanları ilə məhdudlaşmayıb və məhdudlaşmayacaq; onlar vəfatlarından sonra da həmişə bərəkət qaynağı olublar. Onlar təkcə dostları və sevdikləri insanların çətinliklərini deyil, bəzən qeyri-müsəlmanların da çətinliklərini həll etmişlər; İslam tarixi boyu məsum imamlardan (ə) görünən kəramətləri bir yerə toplasaq, geniş həcmli bir kitab alınar. İmamların (ə) davamlı olan ən mühüm bərəkəti onların sözləri və həyat tərzləri (sünnəsi) sayılır. Bu bərəkətli və nurani hədislər İslam dininin yayılma, qorunma mayası və insanların səadətidir. İnsanı xoşbəxtliyə çatdıran həqiqətlər yalnız Quran və sünnədə mövcuddur. Yoxsa biz axirət səadəti və kamilliyinə çatmaqdan başqa bir məq-sədləmi yaranmışıq?! Bizə bu sahədə ən çox yardım göstərən Allahın Rəsulu (s) və əziz imamlarımızdan (ə) qalmış hədislərdir. Beləliklə, əgər bir şəxs yaranışın əsas hədəfinə nəzər salsa, imamlıq nemətinin heç bir nemətlə müqayisə olunmayacağını görər. Bu nemətin şükrü də nemətin özünə uyğun olmalıdır.

Təəssüf ki, indiki dövrdə çox az insan bu məsələyə diqqət yetirir. Dünya cəmiyyətinin əksəriyyəti müsəlman deyil. Müsəlmanların da bir çoxunun İmam Zamanın (ə.f.) həyatda olmasına etiqadları yoxdur. Yalnız azlıq təşkil edən Əhli-beyt (ə) tərəfdarları o həzrətin həyatda olmasına inanırlar. Təəssüf ki, bu azlığın da bir çoxunun özü yox, adı Əhli-beyt (ə) tərəfdarıdır. Beləliklə, bu şəxslər də Əsrin İmamını (ə.f.) çox az düşünür. Yalnız müsəlmanların cüzi bir hissəsinə bu nemət nəsib olub və onlar bəzən həzrəti yad edir, bəla zamanı ona bağlanırlar. İndi isə baxaq görək ildə, ayda və həftədə həzrəti neçə dəfə yad edirik? Öz həyatımızda onun müqəddəs varlığı üçün hansı izlər buraxırıq? Əsrin İmamının (ə.f.) ziyarətindən məhrumluğu özümüz üçün bəla hesab edirikmi?

# Öz imamından xəbərsizsən!

*Adətən, İmam Zamanın (ə.f.) qeybdə olmasından və onunla görüşdən məhrum qalmağımızdan çatışmazlıq hiss etmirik; çörək və suyumuz hazırdır, dini məsələləri də alimlər və müctəhidlərdən öyrənirik. Beləliklə, Əsrin İmamına (ə.f.) nə ehtiyacımız var?! Nə üçün çatışmazlıq hiss etmirik? Nə üçün onun qeybdə olmasından narahat deyilik? Bunun səbəbi inanc zəifliyi və qəflətdir; həqiqətdə ehtiyacsız deyilik, ehtiyacımız var, lakin dərk etmirik. Hansı bəlaya düşdüyümüzü düşünmürük. Bu bəlanı özümüz öz əlimizlə yaratmışıq. Ümmətin pis rəftarı və imamların (ə) varlığına naşükür münasibətdə olması həzrət İmamın (ə) qeybə çəkilməsinin mənşəyi olmuşdur. Məgər İslam dünyasında baş verən bu ixtilaflar bəla deyilmi?*

*Qurani-şərif buyurur ki, Allahın insanlara göndərdiyi ən böyük bəlalardan biri onların arasında baş verən ixtilaf və təfriqədir:*

*"De: "Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmağa və birinizə digərinizin zorunu daddırmağa qadirdir!". (əl-Ənam, 65)*

*Bu gün açıq-aşkar görünür ki, qəlblər pərakəndə, fikirlər, məsləklər və üsullar fərqlidir. Bütün bu ixtilaflar və parçalanmalar İmam Zamanın (ə.f.) qeybdə olmasından qaynaqlanır.*

*Mübarək Ramazan ayında Allahla raz-niyaz etmək istədikdə "İftitah" duasının qeyd edilən bu hissəsini oxuyaq və qeyb dövründə, onun ziyarətindən məhrum olduğumuz üçün narahatlıq və təəssüf hissi keçirək. Duanın bu hissəsini sadiqliklə və azacıq təfəkkürlə oxuyaraq, imamın varlığının bizim üçün necə də böyük bərəkət olduğunu və hazırda bu böyük nemətdən məhrum olub, bəla və çətinliklərə düçar olduğumuzu düşünmək daha yaxşı olar.*

### Nə etməli?

Uca Allahın və Əsrin İmamının (ə.f.) razılığını qazanmaq üçün nələr etməli olduğumuzu bilməmək bizim üçün böyük çətinlik yaradır. Əlbəttə, Allah Quranı, peyğəmbərləri (ə) və məsum imamları (ə) göndərməklə, bizə təfəkkür və ağıl qüvvəsi verməklə bizim üçün bu yolu asanlaşdırmışdır. Əgər yaxşıca diqqət yetirsək, bütün

ixtilaf və təfriqələrdə düzgün yolu – Allahın və İmam Zamanın (ə.f.) razılığına səbəb olan yolu seçə biləcəyik. Eyni zamanda, böyük bir feyzdən məhrumuq. Daxildən və xaricdən hücum çəkən cürbəcür çətinliklər bizim üçün meydanı daraldır. Bir tərəfdən öz aramızda ixtilafa düşmüşük, başqa bir tərəfdən şərq və qərb bizimlə müxalifətdədir. Heç bir tayfa, heç bir məktəb Əhli-beyt (ə) məzhəbi qədər qürbətdə deyil. Bütün məktəb və məsləklər ya şərqə, ya da qərbə bağlıdır. Bu arada yalnız Əhli-beyt (ə) tərəfdarları öz rəhbərinə bağlanmış, onun zühurunun ümidindədir. İndi isə İmam Zamanın (ə.f.) hansı işləri sevdiyini və hansı rəftarları bəyəndiyini öyrənməliyik.

Bizim etiqadlı olduğumuz məsələlərdən biri də Əsrin İmamının (ə.f.) ümmətin, xüsusi ilə də Əhli-beyt (ə) dostlarının işlərindən xəbərdar olmasıdır. Bizim hədis kitablarında "Ərzul-əmal" (Əməllərin təqdim edilməsi) adlı bir fəsil var. Bu fəsildə bir çox hədislər toplanmışdır. Bu hədislərdə mömininin həftəlik (bəzi hədislərə əsasən, gündəlik) işlərinin İmam Zamana (ə.f.) çatdığı bildirilir. Qədr gecəsi isə ümmətin bütün taleyi o həzrətə çatdırılır. Həzrət İmam (ə) insanlarla Allah arasında feyz, xeyir-bərəkət vasitəsidir və ilahi feyzlər onun vasitəsilə insanlara çatır. Görəsən, bizim əməllərimizdən xəbərdar olduqda kədərlənmirmi?! Gərək, elə işlər görək ki, o həzrət əməllərimizi gördükdə sevinsin. Yoxsa iraq olsun, – "mən belə ardıcılları istəmirəm", – deməsin.

Həzrətin razılığına səbəb olan bir çox işlərə əməl etmirik. Bu işləri gördükdə həzrətin sevincinə səbəb olacağını və bizə daha çox diqqət yetirəcəyini bilirik. Lakin nəfsi istəklərimizlə uyğun gəlmədiyindən bu işlər görülməmiş qalır.

Əziz Peyğəmbərimizin (s) və məsum imamların (ə) dinin və Allahın hökmlərinin qorunması üçün gəldiyinə heç birimiz şəkk etmirik. Onların bütün zəhmət və səyləri insanların Allaha yaxınlaşması və Ona bəndəlik etməsi üçündür. Eyni zamanda, ilahi hökmlərin və dinin qorunmasına səbəb olan işlər İmam Zamanın (ə.f.) razılığına, insanların dindən uzaqlaşmasına, İslam inancları, ilahi hökmlər və dinin təhrifinə səbəb olan şeylər isə onun qəzəblənməsinə və əziyyət çəkməsinə səbəb olur. Bu həqiqətlərə şübhəmizmi var? Yoxsa peyğəmbər sünnələrinin tərk edilməsi və ilahi ayələrin dəyişdirilməsinin o həzrətin narahatlığına səbəb olmasına inanmırıqmı? Məgər ümmətin inancında və dinə etiqadında zəifliyə zəmin yaradanların o həzrətin düşməni olduğuna şəkkimiz var? Yoxsa – "filan hökm dəyişməlidir, bu gün üçün deyildir, öz zamanına aid idi", – kimi sözlər deməklə insanların inancını zəiflətməyin günah olduğunu bilmirik?

## Qeyb dövründə bizim vəzifəmiz

"İftitah" duasının bu hissəsini səmimi şəkildə oxuyub, əziz Peyğəmbərimizin (s) aramızda olmamasından və İmam Zamanın (ə.f.) qeybə çəkilməsindən narahat olduğumuzu bildirmək istəsək, dinin qorunması üçün əlimizdən gələni əsirgəməməliyik. Elə bir halda olmalıyıq ki, İmam Zaman (ə.f.) gəldikdə verdiyi göstərişləri sorğu-sualsız qəbul edək. Həzrətə xidmət üçün malımız, canımız və bütün istədiklərimizdən keçib hamısını onun ixtiyarına verməliyik. Məgər biz beləyikmi? Buna hazırıqmı? Müaviyənin səhabələri batil yolda hər şeydən keçirdilər, lakin həzrət Əlinin (ə) səhabələri həmişə məsuliyyətdən boyun qaçırırdılar. Onlar hansısa bir döyüş olduqda havanın soyuq və ya isti olması bəhanəsi ilə döyüşdən qaçırdılar. Həzrət Əli (ə) "Nəhcül-bəlağə"də buyurur:

"Allaha and olsun, Müaviyənin mənimlə müamilə etməsini istərdim – sizdən iyirmi nəfəri alsın və öz səhabələrindən birini mənə versin!"

Ramazan ayının gecələrindəki dualardan birində oxuyuruq: "İlahi, Sənin yolunda şəhid olmağı bizə nəsib et".

Özümüzü elə bir şəkildə islah etməliyik ki, Allah yolunda ölümdən çəkinməyək, əksinə, bunu arzulayaq. Allahdan xalis niyyət istəməliyik. Onunla sədaqətlə, saflıqla söhbət edərək, bizə özünün və İmam Zamanın (ə.f.) razılığına uyğun ölüm və həyat verməsini istəməliyik. Ondan istəməliyik ki, bizi o həzrətin köməkçilərindən etsin. Həzrətin razılığına səbəb olan işlər görməkdə və bilmədiklərimizi anlamaqda bizə müvəffəqiyyət versin.

Biz İmam Zamanın (ə.f.) bizə rəhbərlik etməsini və bilmədiklərimizi öyrətməsini istəyirik. Hətta aramızda bir çoxu İmam Zamanı (ə.f.) yuxuda ziyarət etmək arzusundadır. Beləliklə, görülməli işlərdən biri də hər bir insanın həzrət İmamın (ə.f.) varlığından bəhrələnmək üçün onun ziyarətini istəməsidir. Buna görə də o həzrəti ziyarət etməyə layiq olmalıyıq. Əsrin İmamının (ə.f.) varlığı bizim üçün indi də bərəkət sayılır. Layiq olanlar bu bərəkətə nail olurlar:

"Ey Əhmədin oğlu, görəsən, sənə tərəf bir yol varmı ki, səninlə görüşək? Görəsən, bir sabah, günümüz sənin gününlə birləşəcək və biz səndən bəhrələnəcəyikmi? Nə vaxt sənin içməli axar çaylarına daxil olub sirab olacağıq? Nə vaxt sənin sərin suyundan içəcəyik...? Nə vaxt olacaq ki, səhər-axşam sənin yanında olacağıq və gözlərimizin yaşı quruyacaq (şad olacağıq)? Nə vaxt sən bizi görəcəksən və biz də səni görəcəyik...?"

Allah Əsrin İmamını (ə.f.) tanıyıb onun qədrini bilməkdə bizə müvəffəqiyyət, onu sevmək üçün uğur versin, zühuru və hökumətinin həqiqi intizarını bizə nəsib etsin; bizi qeyb dövründəki vəzifələrimizlə tanış etsin. Qeyb və zühur zamanı onun hüzurundan bəhrələnmək üçün bizə nailiyyət bəxş et, ya Rəbb!

İlahi, həzrət Məhəmməd və onun ailəsinə mərhəmət göndər, vədini (zühuru) gerçəkləşdir.

İlahi, haqq qanununu bərpa et, dəvətini ucalt, onun düşməni və öz düşmənin üzərində (ona) yardım göstər.

İlahi, bizim salamımızı ona yetir, öz razılığınla bizə minnət qoy, bizə Öz mərhəmətini bəxş et.

İlahi, bizi onunla dostluqdan bəhrələndir, bizi onun ordusunda və bayrağı altında birləşdir.

Ayətullah Misbah Yəzdi




# Dərdli cümələr

1. İmam Zaman (ə.f.) Allahın görən gözü, eşidən qulağı, danışan dili və açılan əlidir. (Qeyd edilən ifadələrdə Allahın cisim olmadığı nəzərə alınmalıdır).
2. İmam Zamanın (ə) qeybdə olmasının səbəbkarı biz özümüzük!
3. Zühurdan öncə din və imanda qalanlara, sabitqədəm olanlara xüsusi lütflər, mərhəmətlər edilir.
4. Biz həyat dəryasında qərq olma ərəfəsindəyik. Məqsədə salamat gedib çatmağımız üçün ilahi höccətə ehtiyacımız var. Buna görə də Əsrin İmamına (ə.f.) pənah aparmalıyıq ki, yolu aydınlaşdırsın və məqsədə yetişənə kimi bizimlə olsun.
5. Zühurun tezləşməsi üçün edilən dua bizim dərdlərimizin dərmanıdır.
6. Qeyb dövründə də İmam Zamanın (ə.f.) öz ardıcıllarına, onu sevənlərə olan mərhəmətləri çox görünmüşdür. O həzrətlə görüş qapısı birdəfəlik bağlanmamışdır. Əksinə, cismi görüşü də inkar etmək mümkün deyil.
7. “Eynullahin-nazirə” (Allahın görən gözü) kimi rəhbərimizin olmasına etiqadlı olduğumuz halda, Allahın nəzərindən qaçmağımız, yaxud özümüzü gizlətməyimiz, hər nə istəsək edə biləcəyimiz mümkündürmü?! Nə cavab verəcəyik?!
8. Həzrət Höccətin (ə.f.) gözümüzdən qeybə çəkilməsinə və bizim o cənabın hüzurunda olmaq feyzindən məhrum olmağımıza baxmayaraq, onun yolu ilə müvafiq, yaxud müxalif olan əməlləri bilirik. Bilirik ki, əməllərimizlə o əziz imamı (ə.f.) sevindiririk (məsələn, zəif də olsa, hüzuruna salam göndəririk), yoxsa kədərləndiririk.
9. İmam Zamanın (ə.f.) dostlarına əziyyət verməklə onun zühurunun intizarında olmaq uyğun gəlmir.
10. Həzrət, adını çəkənlərə, onu səsləyənlərə və ondan kömək istəyənlərə necə də mehribandır! O həzrət onlara öz ata-analarından da mehribandır.
11. Xüsusən də şərafətli “Əzuməl-bəla və bərihəl-xəfa” duasını oxuyun və Allahdan istəyin ki, əmr sahibini yetirsin.
12. Görəsən, ahu-zarla müsəlmanların və həqiqi islahedicinin zühurunu istəmək fikrində olmayacağıqmı, dua etməyəcəyikmi?
13. Zühurun tezləşməsi haqda dua etməkdən daha mühüm olanı zühura kimi imanda, əqidədə sabitqədəm qalmaq və həzrəti inkar etməmək haqda dua etməkdir.
14. Təəssüf ki, hamı şəxsi ehtiyaclar üçün Cəmkəran məscidinə gedir. Bilmirlər ki, o həzrətin özü onların, öz zühuru haqda dua etmələrini necə istəyir!
15. Hər kəs öz fikrində olmalı və zühurun gec-tez olmasından asılı olmayaraq, həzrət Höccətlə (ə) bağlılıq yaratmaq, şəxsi qurtuluşu üçün bir yol tapmaq fikrində olmalıdır.
16. Bu yolda yalnız o həzrət üçün yaşayanları istəyirlər. Zühurun intizarında olanlar o adamlar sayılırlar ki, şəxsi ehtiyaclarının ödənməsi üçün deyil, Allah üçün və Allah yolunda o həzrətin zü-

hurunun intizarında olmuş olsunlar.
17. Əgər dinin qəti və yaqinliklə bildiyimiz məsələlərinə əməl etsək, yuxuda və ya öz əməllərimiz üzərində hesabat apardığımız zaman başa düşəcəyik ki, etdiyimiz hansı işimizə görə İmam Zaman (ə.f.) qəti şəkildə bizdən razı və hansına görə qəti şəkildə narazıdır.
18. O həzrətin fərəcinin (zühurunun) tezləşməsi üçün edilən dua hökmən təsirlidir (amma əsl dua, dilucu edilən dua yox).
19. Bəli... susuzlara vüsal damlası, camal vurğunlarına həyat və mərifət suyu verilər. O həzrətin işi hamıya kömək və çarəsizlərə yardım etməkdir. Belə olduqda, görəsən, biz mərifət yanğılı və görüşə şövqlü olduğumuz halda, o  həzrət bizdən həyat suyunu əsirgəyərmi?!
20. (İmamlar (ə)) buyururlar ki, siz özünüzü islah edin, biz sizi axtaracağıq, sizin bizim arxamızca düşməyiniz lazım deyil.
21. Əsrin İmamı (ə.f.) ilə bağlılığımız güclənmədikcə, işimiz düzəlməyəcək. Bu güclənmə isə nəfsin islahına bağlıdır.
22. Hədisdə deyilir ki, axırzamanda zühur üçün dua edənlərdən başqa hamı məhv olacaq. Sanki, zühur haqda olan bu dua bir ümidvarlıq və dua sahibi ilə ruhi bağlılıqdır. Bu, qurtuluşun bir dərəcəsidir.
23. Hamımız şəxsi işlərimizin fikrindəyik, o həzrətin fikrində deyilik. Halbuki onun faydası hamıya şamil olur və o bütün zəruri tələblərin fövqündədir.
24. Bizim günahlarımız və əməllərimiz ucbatından o həzrət min ildir səhralarda, çöllərdə dərbədər olmuş və qorxu içində yaşamaqdadır.  (Məlumdur ki, o həzrət özü üçün qorxmur. O cənab salamat şəkildə zühura yetişməsi və müqəddəs hədəflərini həyata keçirməsi üçün zühuruna kimi gizli yaşamalıdır. – Tərc.)
25. Müqəddəs məkanlara (məsələn, Cəmkəran məscidi kimi) gedənlərin ən böyük istəyi feyz vasitəsinin, yəni o həzrətin zühurunu Allahdan istəmək olmalıdır.
26. İmam Zamanın (ə.f.) dəftərində hansı qrupdan hesablandığımızı Allah bilir! Bəndələrin əməlləri həftədə iki gün (birinci və dördüncü gün) ona təqdim edilir. Biz onu bilirik ki, olmalı olduğumuz kimi deyilik.
27. Ümumi qurtuluşdan fərqli olaraq, o həzrətlə əlaqə, ona qovuşmaq, şəxsi qurtuluş bizim əlimizdədir. Buna baxmayaraq, nə üçün buna əhəmiyyət vermirik, düşünmürük ki, o cənabla necə əlaqə yaradaq?! (Yəni həzrətin hamıya görünməsi, zühur etməsi üçün müxtəlif şəraitlər tələb olunur. Amma şəxsi görüş belə deyil. İnsan özünü islah edərsə, bu mümkündür. –Tərc.)
28. Günəşin işi bulud arxasında olsa da, nur saçmaqdır. Qeyb buludu arxasında olsa da, həzrət Sahib (ə) də belədir...! Bizim gözümüz görmür, amma görənlər olmuş və indi də var. Yaxud görməsələr də, o həzrətlə əlaqələri var.
29. Mövlamız, rəhbərimiz Əsrin İmamı (ə.f.) hüznlü ola-ola bizim xoşhal olmağımız mümkündürmü?! Mümkündürmü ki, o həzrətin gözü dostlarının bəlalara, sıxıntılara düşməsi nəticəsində ağlar qalsın, amma biz şad və sevincli olaq, özümüzü də ona tabe olanlardan hesab edək?!
30. Kaş əyləşib o həzrətin nə zaman zühur edəcəyi haqda bir-birimizlə söhbət edəydik, bununla da ən azı zühuru gözləyənlərdən hesab olunardıq.
31. İman əhli öz həqiqi sığınacağını tanısa və ona sığınsa, oradan onlara mərhəmət olunmaması mümkün olan işdirmi?!
32. Bizə nə vəhy, nə də ilham olunmamasına baxmayaraq, ona – vəhy və ilham olunan vasitəyə – diqqət etmirik. Halbuki (istər mənəvi və axirət işlərində, istərsə də zahiri və dünyəvi işlərdə) bütün çətinliklərdə o feyz vasitəsinə müraciət etmək olar.
33. Narahatlıqdan xilas yolu xəlvət guşələrdə Əsrin İmamının (ə.f.) zühuru haqda (adət üzrə dilucu edilən yox, həqiqi) dua etməkdir... İxlas, düzgün niyyət və tövbə ilə edilən dua.

Məhəmmədtəqi BEHCƏT
("Bir damla vüsal" kitabından)



# ƏN ÜSTÜN TANIMA ODUR Kİ, İNSAN ÖZÜNÜ TANISIN

Böyük bir gəmi dənizdə üzməkdədir. Öz anbarında çox sayda sərmayəsi vardır. Gəminin kapitanı çox bilikli bir insandır və o gəmini küləyə qarşı idarə etməyi yaxşı bilir. O, həm dənizin və həm də küləyin gücündən bəhrələnir. Öz elmi ilə gəminin batmasına mane olur. Əgər gəminin kapitanı bilikli olmasaydı, heç bir külək və ya dəniz bu gəminin batmasına mane ola bilməzdi. Ona görə də idarəçisi sağlam olmalıdır ki, gəmini idarə edə bilsin. Əks halda gəmi öz məqsədinə çatmaz.

İnsanın daxili sərmayəsi sağlam yelkənlərə bənzəyir. Bu sərmayəni tanımaq - özünü tanımaq deməkdir. Bu sərmayəni kəşf etmək və ondan düzgün bəhrələnmək insanın ən mühüm müvəffəqiyyətidir. İnsan özünü tanıyaraq öz daxili sirlərini və zati istedadlarını kəşf edə bilər.
O kəslər ki, cəhalət və agahsızlıqla bu sərmayəni unudur və onu xəzinə kimi yerə basdırırlar, Allaha itaətsizlik və günah işlədərək, bu sərmayəni zay edərlər. Onlar dünya və axirətdə ziyana uğrayanlardır. ***"De: «Şübhəsiz, (əsl) ziyana uğramış kəslər Qiyamətdə özlərini və ailələrini ziyana uğratmış kəslərdir. Bilin ki, həmin açıq-aşkar ziyan budur»". ("Zumər" 15).***
**İmam Əli (ə) buyurur: *"Ən üstün tanıma odur ki, insan özünü tanısın".***
***"(Yada sal) o gün(ü) ki, hər bir şəxs mübahisə və özünü müdafiə edən halda gələr, hər bir kəsə etdiyi(nə uyğun mükafat və ya əməlinin gerçək təzahürü) kamil surətdə verilər və onlara zülm olunmaz (haqları kəsilməz)". ("Nəhl" 111).***
**Qəlbin salamatlığı - o dəyərli gövhərdir ki, Qiyamət günü ona alan tapılar və çirkinliklərdən pak olar. «O gün ki, malın və oğulların bir faydası olmayacaq». «Yalnız (fəsadlı əqidələrdən və əxlaqdan) salamat (sağlam) bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!». ("Şuəra" 88-89).**

**Özünü tanıma mehvəri:**
1. Şəxsiyyətin müsbət tərəflərini tanımaq.
2. Şəxsiyyətin mənfi tərəflərini tanımaq.
3. Həyatın aydın və üstün cəhətlərini tanımaq.
4. Əlaqə, meylləri tanımaq.
İnsan öz istedadlarını və meyllərini tanısa, öz böyük sərmayəsinə elm əldə etmiş olar. Həyat yolunu zati istedadlarına uyğun seçər və qələbə yolunu asan başa vurar. Başqa bir tərəfdən isə bu tanıma insanın zəif tərəflərini ona tanıdır. Belə olan halda insan öz eyblərini aradan qaldırmağa çalışar. Həyatın çətinliklərinə qarşı məntiqli mübarizə aparar.

**Özünü unutma.**
Özünü tanımanın əksi - özünü unutmaqdır. Belə bir insan xəyalında özü üçün şəxsiyyət təsəvvür edər və elə bilər ki, özü həmin şəxsiyyətdir. Halbuki, bu, onun özü deyildir, bəlkə xəyalıdır. O, öz həqiqətni



unudur və ondan uzaqlaşır.

*"Allahı unutduqlarına görə, Allahın da onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar həmin fasiqlərdirlər!"* ("Həşr" 19).

İnsan elə bilir ki, həqiqi mənliyi elə bu bədənidir. Bütün səy və çalışmalarını bədəninə görə edər. Ona görə də həqiqi mənliyini itirmiş olar. Bu, ona bənzəyir ki, insanın başqa bir materikdə bir torpağı vardır. Zəhmət çəkib orada ev tikir və oranı pərdə və xalçalarla bəzəyir. Ancaq həmin evə köçmək istədiyi gün başa düşür ki, öz torpağı yerinə, başqasının torpağında ev tikmişdir. Öz torpağını isə xarab etmişdir.

***İmam Əli (ə) buyurur: "Təəccüb edirəm o kəsə ki, itmiş şeyini axtarır, halbuki özünü itirib, lakin onu axtarmır".***

Özünü unutmaq - yəni, təkamül yolunu azmaq deməkdir. Hər bir insan öz fitri təkamül yolunda irəliləyər. Həqiqətdə özündən özünə səfər edər. Yəni öz zəifindən öz güclüsünə tərəf hərəkət edər. Özünü unutmaq nəticəsində insan öz həqiqətini və mahiyyətini unudar və onu məhv edər. O, bir heyvana çevrilər. Beləliklə, deyə bilərik ki, bu fani dünyada insan gərək özünü tanımaq və öz istedadlarını kəşf etməklə təkamülə çatsın. Qəflət dənizində qərq olarsa, həm dünyada və həm də axirətdə ziyana uğrayar.

**İmam Əli (ə) buyurur:** ***"Allah Təala Allahı yada salmağı qəlblərin səfa mənbəyi qərar vermişdir. Allahı yada salmaq qulağın ağırlığını, gözün korluğunu, nəfsin üsyanını yatızdırar və onları ram edər".***

# İMAM ZAMAN ağa (ə.f) nə vaxt zühur edəcəkdir?

Məhdəviyyət mövzusunda ən mühüm məsələ - zühurun vaxtıdır. Məsumlar (ə) zühurun zamanını İlahi sirr adlandırmış və vaxt təyin etməyi inkar etmişdilər.

Quran ayələrindən və hədislərdən belə nəticə çıxartmaq olur ki:

- Zühurun dəqiq zamanı haqqında elm ancaq Allaha məxsusdur.
- Məsumlar (ə) daima insanları vaxt təyin etməkdən çəkindirmişdilər.
- Hədislərin əksər hissəsi buyurur ki, zühur anidən olacaqdır.
- Bir neçə hədislər bu zamanın bəzi hikmətlərinə işarə etmişdilər.

Məşhur bir hədisdə oxuyuruq ki, tanınmış şair olan Dəbəl İmam Rzanın (ə) xidmətində qəsidə oxuyur və İmam Zaman ağanın (ə.f) zühuru haqqında danışır. Həzrət (ə) gözlərindən yaş axan halda üzünü Dəbələ çevirib, buyurur: ***"Ey Xəzayi! Həqiqətən Ruhul-Qüds bu iki misranı dilində səsləndirdi. Bilirsənmi ki, bu İmam kimdir? Nə zaman qiyam edəcəkdir?".*** Sonra İmam Rza (ə), Həzrət Qaimi (ə.f) tanıtmağa başladı. Sonra zühur zamanı haqqında belə buyurdu: "Atam atasından və o da öz atasından və Peyğəmbərdən (s) nəql edir ki, Həzrətə sual verilir ki: ***"Ey Rəsulallah! Qaim nə zaman sizin nəslinizdən zühur edəcəkdir?". Həzrət (s) buyurur: "Onun məsəli – Qiyamət günü kimidir. Allahdan başqa heç kəs vaxtını aşkar etməz. Bu məsələ səma və yer (əhli) üçün çətindir. Anidən sorağınıza gələcəkdir"".***

Bəli, bu hədisdən göründüyü kimi, əziz Peyğəmbərimiz (s) zühur zamanını Qiyamətə bənzədir. Necə ki, Qiyamət gününün vaxtı məchuldur və Allahın ixtiyarındadır, Həzrət Qaimin (ə.f) də zühuru Allahın ixtiyarındadır. Bu sualı İmam Zaman ağaya (ə.f) da vermişdilər və Həzrət (ə.f) cavabında buyurmuşdu: ***"Ancaq fərəcin zühuru Allah Təalanın ixtiyarındadır. Vaxt qoyanlar yalan deyirlər".***

Aydın olur ki, zühur üçün vaxt təyin etmək heç də bəşərin bacardığı bir iş deyildir. Çünki Allahdan qeyrisi onun nə zaman olacağını bilmir.

Lakin bəzi hədislər vardır ki, üstüörtülü də olsa, zühurun zamanına işarə etmişdir. Belə ki, onların bəzisi zühurun Novruz bayramında olacağını, bəzisi Aşura günündə olacağını zikr edir. Bəzi hədislər şənbə günü və bəzi hədislər isə cümə günü olacağını bildirir.

İmam Baqir (ə) buyurur: ***"Sanki Həzrət Qaimi (ə.f) görürəm ki, Aşura günü, həftənin şənbə günü rüknlə məqamın arasında dayanmışdır. Cəbrayil (ə) də qarşısında nida verir: "Beyət Allah üçündür. Yer kürəsini ədalətə bürüyəcəkdir, necə ki, indi zülmə bürünmüşdür"".***

İmam Sadiq (ə) buyurur: ***"Qaim (ə.f) Ramazan ayının 23-də (şərəfli) adı ilə nida olunacaq və Hüseyn ibni Əlinin (ə) öldürüldüyü Aşura günündə qiyam edəcəkdir".***

Başqa bir hədisdə isə oxuyuruq ki, Həzrət Qaim (ə.f) Aşura günü şənbə gününün səhəri zühur edəcək, günəş çıxandan sonra İbrahim (ə) məqamının arxasında iki rükət namaz qılacaq, rüknlə məqamın arasında dayanıb ilk xütbəsini dünya insanlarına çatdıracaqdır. Özünü tanıdandan sonra insanları beyət etməyə dəvət edəcəkdir.

(Tebyan. Deyerler)

*Allah Təala bizləri o Həzrətin (ə.f) zühurunu tezləşdirənlərdən qərar versin.*

# Zaman insan ömrünün ən bahalı sərmayəsidir



## Quranın “Əsr” surəsində Allah-təala müxtəlif zamanlara and içir.

Allahın zamanlara and içməsinin səbəbi nədir? Uca Yaradan zamana and içməklə, insan ömrünün qiymətli olduğunu başa salır. Yəni insanın ömrünü təşkil edən zamanlardır. Allahın andları insanların fikrini ömrün ən bahalı sərmayəsinə yönəltməkdir. Ömür insan üçün müxtəlif dövrlərdən təşkil olunmuş zaman kəsimləridir.

Həzrət Əli(ə) deyib: ”Həqiqətən sənin ömrün, sənin içində olduğun vaxtındır.”

Deməli ömür insana verilən vaxtdan ibarətdir. Bu ömür insanlara zamandan verilmiş vaxt payıdır. Zaman uzundur və onun yaranması milyon illər öncə baş verib. Həmin bu zamandan insana müəyyən qədər pay verilmişdir. Buna görə də insana verilmiş bu pay çox mühümdür.

Həzrət Əli(ə) buyurur: ”Sənin ömrün çəkdiyin nəfəslərin sayıdır və bu nəfəsləri bir gözətçi izləyir. İnsanın aldığı və verdiyi hər bir nəfəs onun ömrünün sayını təşkil edir. İnsan öz ömrünün nə vaxt sona çatacağını bilmir. Bir gün bu nəfəs kəsilir və bütün dünyanı sərf etsələr belə onu geri qaytarmaq mümkün olmur”.

Məhz buna görə insan ona verilən bu fürsətdən səmərəli istifadə etməli və onun qədrini bilməlidir.

Həzrət Peyğəmbər(s) buyurur: ”Öz ömrünə qarşı dinar-dirhəmdən daha xəsis ol.”

Peyğəmbərin(s) bu kəlamında təlqin edilir ki, insan öz ömrünü bihudə keçirməməli və hər dəqiqəsindən axirəti üçün səmərəli istifadə etməlidir. Hər bir gün insanın yeni vaxtıdır. O vaxtı ötürdükdən sonra bir daha onu geri qaytarmaq mümkün deyil.

İmam Baqir(ə) deyib: ”Elə bir gün yoxdur ki, səsləyib deməsin: Mən yeni bir günəm. Məni qənimət bilin. Məndə olan günəşi qiyamət gününə qədər bir daha görməyəcəksiz.”

İnsanın ömründən keçən hər bir günün öz hesabı və təklifləri var. Bir günün təklif və hesabı əldən verilsə, bir daha onu qaytarmaq olmur. Əgər bu gün sübh namazına dura bilmədinsə, artıq o günün sübh namazı əldən getmiş olur. Çalışmaq lazımdır ki, digər günlərin namazının savabı itirilməsin.

Peyğəmbər(s) buyurur: ”4 şeyi itirməmiş qədrini bil. Qocalmamış cavanlığının, xəstələnməmiş sağlamlığının, yoxsullaşmamış malının, ölüm yetməmiş həyatının və ömrünün.”

Elə olmamalıdır ki, insan imkanları əlindən çıxdıqdan sonra peşiman olub desin: ”Kaş filan xeyir əməli edəydim.”

Bir gün bir yaşlı insan onunla söhbət edən alimə deyir: ”Hamı bilirdi ki,vaxtilə mənim çoxlu mal-dövlətim vardı. Əlimdən çıxan bütün mal-dövlətimə görə zərrə qədər də olsun narahat deyiləm. Çünki əlimdə var-dövlət olan vaxtlarda çoxuna əl tutub ehsanlar etmişəm. Kimin imkanı olmadığını gördükdə, ona əl tutmuşam. Ehtiyaclı gördüyüm hər bir kəsə həmin var-dövlətdən müəyyən miqdar vermişəm. Əgər mən bu yaxşılıqları etməsəydim, indi mal-dövlətimin əlimdən çıxdığına görə çox peşman olardım. Yəqin bilirəm ki, ehsan etdiklərim itməyib. Onlar mənim axirət azuqələrim olaraq qalır. Buna görə də heç bir narahatçılığım yoxdur.”

Həzrəti Peyğəmbər(s) buyurur: ”Hər bir insana qiyamət günü ömrünün hər bir anı üçün otaqlar açılacaq. O cümlədən otaqlardan birində nur, şadlıq və rahatlıq otağı gördükdə o qədər sevinəcək ki, əgər həmin şadlığı bütün cəhənnəm əhli arasında bölüşdürsələr, heç bir qəm-qüssəli qalmaz və onlar cəhənnəm odunu unudarlar. Bu nə otaqlardır

belə- deyə soruşanda: "Bu,dünyada Allaha ibadət etdiyin anların otaqlarıdır" deyiləcək.

İkinci otaq çox qorxulu, əzablı və qaranlıq olacaq. İnsan həmin otağı gördükdə elə bir vəhşətə, qorxuya düşəcək ki, əgər onun qorxusunu cənnət əhli arasında bölüşdürsələr, onlar həmin vəhşətdən cənnətin nemətlərindən aldıqları ləzzəti unudarlar. Bu otaq haqda soruşulduqda: "Bu, dünyada günah etdiyin anların otaqlarıdır," deyiləcək.

Üçüncü otaq boş bir otaq olacaq. Orada nə şadlıq, nə də qəm-qüssə görəcək. Bu otağı soruşduqda: "Bu, dünyada vaxtını boş keçirdiyin anların otağıdır. Həmin anlar sənin boş gəzdiyin, yatdığın və savab qazanmadığın anlardır."

Odur ki, qiymətli və dəyərli ömrümüz öz əlimizdə olduğu zaman bu ömürdən istifadə edib bacardığımız qədər axirət azuqəsi toplamalıyıq.

İlahə

*İslaminsesi*



# *Cəhənnəm əhli 4 şeyə görə nalə çəkər.*

***"Günahkarların halını; (Onlara üz tutaraq soruşarlar:) «Sizi Cəhənnəmə daxil edən nədir?» Deyərlər: «Biz namaz qılanlardan deyildik. Fəqirə və yoxsula təam verməzdik. Batil əhli ilə birlikdə (bihudə işlərə və söhbətlərə) dalardıq. Cəza gününü təkzib və inkar edərdik. Ölüm bizi yaxalayana qədər». ("Muddəssir" 41-47).***

Cəhənnəm əhli 4 şeyə görə nalə çəkər.

**1. Namaza diqqət etmədiklərinə görə.**

Yuxarıdakı ayələrdən belə başa düşmək olur ki, behişt əhli ilə cəhənnəm əhli heç də bir-birindən uzaqda olmayacaqdır. Çünki onlar bir-birinin halından xəbərdar olacaqlar. Bu ayədən göründüyü kimi, onlar bir-biri ilə söhbət edərlər. Behişt əhli onlardan soruşur ki, necə oldu ki, İlahi rəhmət onlara şamil olmur. Cəhənnəm əhli ilk amil kimi namaza diqqət etmədiklərini söyləyirlər. Yəni, biz namaz əhli deyildik. Bu yolla namazın nə qədər bəlanı uzaqlaşdırdığını görmək olar. Çünki əgər namaz qılsaydılar və Allahı yada salsaydılar, qəflətə düşməzdilər.

İmam Sadiq (ə) buyurur: "O zaman ki, bəndə vaxtında namaza durarsa, ona nəzarət edərsə, ağ nur parçası kimi yuxarı qalxar və deyər: "Sən məni hifz etdin, Allah da səni hifz etsin". Ancaq o zaman ki, namazını vaxtında qılmaz, ona nəzarət etməzsə, o namaz qara ləkə halına düşər və deyər: "Məni zay etdin, Allah da səni zay etsin"".

**2. Yoxsullara əl tutmamaq.**

Cəhənnəm əhlinin ikinci naləsi yoxsula əl tutmamağa görə olar. O kəs ki, Allahı yada salmır, bəndələri necə yada salsın ki? Həzrət Peyğəmbər (s) buyurur: "Qiyamət diyarı başdan-başa (isti) atəşdəndir. Möminin kölgəsindən başqa. Belə ki, sədəqəsi ona kölgə salar".

**3. Batil insanlarla oturub-durmaq.**

Çox təəssüf ki, müasir cəmiyyətdə batil insanların sayı artmaqdadır və cavanların bir çoxu da agahsızlıq üzündən onlara meyl edirlər.

Həzrət Peyğəmbər (s) buyurur: "O kəsin ki, Allaha və Qiyamət gününə imanı var, kafirlə qardaş olmamalıdır. O kəs ki, kafirlə qardaşlıq edər, kafir olar".

**4. Məaddan qəflətdə olmaq və ölümü unutmaq.**

Cəhənnəm əhlinin dördüncü naləsi - ölümü unutmaq və məadı inkar etməkdir. Dini təlimlərdə oxuyuruq ki, məadı inkar etmək bütün İlahi dəyərləri aradan aparar və məhv edər. İnsanı günaha cürətləndirər.

(Tebyan/ Deyerler.org)



# NƏ ÜÇÜN İMAMLARIN ADLARI QURANDA AŞKAR ŞƏKİLDƏ GƏLMƏMİŞDIR?

Diqqət yetirmək lazımdır ki, məsum imamların adları Quranda aşkar şəkildə gəlməsə də, Peyğəmbərin (səlləllahu əleyhi və alih) kəlamında onların adları, xüsusi ilə “Qədir” hədisinin aşkar nümunəsi olan Əli (əleyhis-salam)-ın adı tam aşkar şəkildə zikr olunur. Bu hədis Əli (əleyhis-salam)-ın xilafət məqamını rəsmi olaraq bəyan edir. “Qədir” hədisi sənəd cəhətindən mütəvatir və dəlalət baxımından Əli (əleyhis-salam)-ın imamətinə aşkar bir şahiddir.

Bundan əlavə, Quranın özündə də bir çox ayələr Əli (əleyhis-salam) şənində nazil olmuşdur. Onların ən mühümü “Maidə” surəsinin 55-ci ayəsidir. Orada buyurulur:

“Sizin rəhbər və vəliniz yalnız Allah, Onun Rəsulu və iman gətirib namaz qılan və rüku halında zəkat verənlərdir.”

Şiə və sünnülərin təfsir, tarix və rəvayət kitablarında qeyd olunur ki, bu ayə Əli (əleyhis-salam)-ın öz üzüyünü namazda – rüku halında sailə (dilənçiyə) verdiyi zaman nazil olmuşdur. Bu ayənin xarici nümunəsi Əli ibni Əbi Talibdən başqa heç kəs deyildir. Deməli, o həzrətin adı Quranda aşkar şəkildə gəlməsə də, o həzrətə dair aşkar işarələr mövcuddur.

O həzrətin adının Quranda aşkar deyilməməsinin səbəbinə gəldikdə isə, heç olmasa iki cavab vermək olar. Əvvəla: Quranın bəyanı bu əsasdadır ki, məsələləri külli şəkildə, ümumi qayda və prinsiplər şəklində bəyan edir, amma onun incəliklərini və xırdalıqlarını bəyan etmir.

İmam Sadiq (əleyhis-salam)-dan “nə üçün imamların adları Quranda gəlməmişdir?” - deyə sual olunan zaman buyurdu: “Allah-taala namaz, zəkat və həcci əsl bir prinsip və külli qanun şəklində nazil etmiş, amma onun xırdalıqlarını bəyan və şərh etməmişdir; bu əməllərin yerinə yetirilmə qaydalarını və hökmlərini dəqiq şəkildə, incəliklərinə qədər Peyğəmbər (səlləllahu əleyhi və alih) bəyan etmişdir. Vilayət barəsində də Peyğəmbərin özü həzrət Əli (əleyhis-salam)-ın və Əhli-beytin xilafətini aşkar bəyan etmişdir. Amma Quranda onların tək-tək adlarının zikr olunmasına ehtiyac yox idi.

İkincisi, belə məsələlər qarşısında çoxlu müxalifət ehtimalı verildiyi üçün məsləhət Quranın belə mühüm mətləbi aşkar olmayan şəkildə – işarə və kinayə ilə bəyan etməsini tələb edirdi. Çünki ehtimal verilirdi ki, imamların imaməti məsələsi ilə müxalifət hüdudları Quranın özü və dinin əsli ilə müxalifətə gətirib çıxartsın. Belə olan halda şübhəsiz, bu iş müsəlmanların xeyrinə və məsləhətinə olmayacaqdı. Yəni əgər Əli ibni Əbi Talib (əleyhis-salam)-ın vilayəti bir ayədə aşkar bəyan edilsəydi, çox hallarda onun vilayəti ilə müxalif olanlar məhz o həzrətlə müxalif olduqlarına görə, həmin ayəni təhrif edər, yaxud Qurandan çıxarardılar. Bu zaman İslamın sonuncu din və Quranın sonuncu əbədi və asimani kitab ünvanı ilə dəyəri aradan gedəcək, hörməti pozulacaqdı.

Halbuki, Allah-taala Quranda buyurur:”Həqiqətən Biz Quranı nazil etdik və Özümüz də onu qoruyub hifz edəcəyik.”Quranın qorunub-saxlanma yollarından biri də budur ki, müxalifət və təhrif stimullarını təbii olaraq aradan qaldırsın. Buna görə də əvvəla, o həzrətin vilayəti tam aşkar şəkildə və adı ilə göstərilməmişdir. İkincisi, Əli (əleyhis-salam)-ın vilayətinə, eləcə də o həzrətin vilayətinin rəsmi olaraq təbliğ edilməsi ilə əlaqədar olan “Təbliğ” ayəsi, Əhli-beytin ismət və paklığını göstərən “Təthir” ayəsi zahirdə nəzərdə tutulan mövzu ilə heç bir əlaqəsi olmayan ayələrin arasında yerləşdirilmişdir ki, təhrif və dəyişiklik məqsədləri mümkün qədər aradan qalxsın, tarix boyu bu səmavi kitab hər növ dəyişiklikdən amanda qalsın.

Əvvəldə bir neçə məsələyə diqqət yetirmək lazımdır: Əvvəla, məsum imamların, xüsusilə həzrət Əli (əleyhis-salam)-ın mübarək adları Peyğəmbər (səlləllahu əleyhi və alih)-in kəlamında aşkar şəkildə və bir neçə dəfə qeyd olunmuş, o həzrət özündən sonra Əlinin canişinliyini və vilayətini aşkar qeyd etmişdir. Onun birincisi besətin əvvəllərində, risalətini öz yaxın qohum-əqrəbalarına təbliğ etdiyi zaman idi. Belə ki, həzrət o məclisdə buyurmuşdu:”Mənə iman gətirən ilk şəxs vəsim, vəzirim və canişinim olacaqdır”.Bu zaman həzrət Əli (əleyhis-salam)-dan başqa heç kəs müsbət cavab verməmiş və Peyğəmbər də yığıncağın axırında buyurmuşdu:”Sən məndən sonra vəsim, vəzirim və xəlifəm olacaqsan.”[1]

Digər bir hədis isə Peyğəmbərin Qədir-xumda aşkar şəkildə buyurduğu bu kəlamdır:”Mən hər kəsin mövlasıyamsa, bu Əli də onun mövlasıdır.”[2]

Həmçinin “mənzilət” hədisində həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) Əli (əleyhis-salam)-a xitabən buyururdu:”Sənin mənə olan münasibətin Harunun Musaya olan münasibəti kimidir, bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur.”[3]

Həzrət Əli (əleyhis-salam)-ın xilafət və canişinliyi ilə əlaqədar buyurulan hədislər əksər hallarda mütəvatirdir və bu məsələyə sünnü və şiə kitablarının çoxunda işarə olunmuşdur.[4]

Digər bir hədisdə Peyğəmbər (səlləllahu əleyhi və alih) məsum imamların adlarını – Həzrət Əlidən Həzrət Höccətə (əleyhimus-salam) qədər – Cabir ibni Əbdüllah Ənsariyə buyurmuşdur.[5]

Deməli, nəzərə almaq lazımdır ki, məsum imamların adları Quranda aşkar şəkildə deyilməsə də, Quranın aşkar buyruğu ilə bütün sözləri haqq və vəhy olan bir şəxsiyyət – Peyğəmbəri-Əkrəm [6]onların adlarını tam aşkar şəkildə bəyan etmiş, onların canişinliyinə və imamət məqamlarına təkid etmişdir.

İkincisi: Qurani-məciddə Əli (əleyhis-salam)-ın vilayətinə dair işarələr vardır. O həzrətin adı aşkar deyilməsə də, bütün müfəssirlər – istər şiə, istərsə də sünnü müfəssirləri – yekdil fikirdədirlər ki, “Maidə” surəsinin 55-ci ayəsi Əli (əleyhis-salam)-ın barəsində nazil olmuşdur və ondan başqa heç bir nümunəsi yoxdur:[7]”Sizin rəhbəriniz və mövlanız yalnız Allah, Onun Rəsulu və iman gətirib namaz qılan və rüku halında zəkat verənlərdir.”

Diqqət yetirmək lazımdır ki, islamda insanın rüku halında zəkat verməsinin vacibliyini göstərən bir göstəriş və qanun yoxdur. Deməli, bu ayə xarici aləmdə bircə dəfə baş verən bir gerçəkliyə işarə edir, bu da Əli (əleyhis-salam)-ın öz üzüyünü rüku halında dilənçiyə verməsi olmuşdur. Belə ki, həzrət Əli rüku halında olarkən işarə etdi və dilənçi gəlib üzüyü onun barmağından çıxardaraq getdi.[8]Buna görə də ayədə buyurulur:”Sizə vilayət və rəhbərlik yalnız və yalnız [9] Allah, Onun Peyğəmbəri və Əlinin öhdəsinədir və onlardan başqa heç kəsin sizə vilayət haqqı yoxdur.”

Bura qədər aydın oldu ki, məsum imamların adı Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in mübarək dilində aşkar şəkildə deyilmiş, Quranda da Əli (əleyhis-salam)-ın vilayətinə dair üstüörtülü, kinayəli işarələr gəlmişdir. Belə ki, haqq-həqiqəti axtarmaq məqamına gələn tədqiqatçı və insaflı bir şəxs azacıq tədqiqat və araşdırılma ilə başa düşər ki, Peyğəmbərin özündən sonra imamət və canişinlik barəsindəki nəzəri – Əli (əleyhis-salam) və onun pak, mütəhhər övladlarının xilafəti olmuşdur. Amma imamların adlarının nə üçün Quranda aşkar deyilmədiyinə gəldikdə isə, bunun iki dəlili ola bilər:

1. Quranın bəyan üslubu belədir ki, məsələləri külli şəkildə bəyan edir, onun incəliklərinə dəxalət edərək şərh etmir. Belə ki, üsuli-din və fürui-dinin əksər məsələləri belədir.

Bu cavab imam Sadiq (əleyhis-salam)-dan nəql olunan bir rəvayətdə[10]təqdim olunur. İmam bu kəlamın təkidi üçün üç misal göstərir: Biri budur ki, Quran namaz məsələsini külli şəkildə irəli çəkir və necə qılınmalı olduğunu, hər namazın neçə rəkəti olduğunu heç vaxt buyurmur. Lakin Peyğəmbər (səlləllahu əleyhi və alih) namazın qılınma qaydasını, rəkətlərinin sayını müsəlmanlar üçün bəyan edir. Digəri isə zəkat məsələsidir. Quranda o, ümumi bir prinsip (və şəri qanun) şəklində bəyan edilir. Peyğəmbər isə zəkatın hansı şeylərə düşməsini, hər birinin nisab həddinin nə qədər olduğunu təyin edir. Üçüncü isə həcc məsələsidir. Quranda yalnız onun vacib olması deyilir, Peyğəmbər isə onun yerinə yetirilmə qayda-qanunlarını şəxsən müsəlmanlara təlim verib bəyan edir.[11]

Deməli, Quranın bütün hallarda məsələlərin tam incəliklərinə qədər bəyan etməsini təvəqqe etmək yersiz bir təvəqqedir. İmamət və xilafət məsələsində Əhli-beytin adlarının bir-bir və aşkar şəkildə çəkilməməsi isə Əhli-beyt məktəbinə sarılmağın vacib olmamasına dair bir dəlil deyildir. Necə ki, zöhr namazının dörd rəkət olması Quranda gəlmədiyini bəhanə edərək onu tərk etmək və ya iki rəkət qılmaq olmaz. Eləcə də həccdə yeddi təvaf yerinə yetirilməsi Quranda gəlmədiyi üçün təvafı və ya həcci tərk etmək olmaz.

2. Çoxlarının müxalifət etməsi ehtimal verilən belə məsələlərdə məsləhət bunu tələb edir ki, Quran mətləbi aşkar (birbaşa) olmayan vasitələrlə bəyan etsin. Çünki ehtimal verilir ki, Əli (əleyhis-salam)-ın imamət məsələsi ilə müxalifətin hüdudları Qurani-məcidin özü ilə müxalifətə də gətirib çıxarsın, bu da şübhəsiz, müsəlmanların məsləhətinə olmazdı.



Əlbəttə, diqqət yetirmək lazımdır ki, Quranın özü”həqiqətən Biz onu nazil etdik və Biz də onu qoruyub hifz edəcəyik”deyə buyurmuşdur.[12]Bu müqəddəs kitabın təhriflərdən, artırıb-azaldılmadan qorunma yollarından

biri də elə şəkildə bəyan olunmasıdır ki, onun təhrif edilib dəyişdirilməsi üçün mövcud olan stimullar özünü zahirdə müsəlman kimi göstərən münafiqlərdən alınsın, hər hansı bir şəxs, yaxud qrup həva-həvəsə itaət, yaxud şəxsi ixtilaflar ucbatından Quranı təhrif etməsin və ya heç olmazsa, öz istəkləri əsasında yozmasınlar, nəticədə Quranın hörməti və dəyəri aradan getməsin.[13]

Ustad şəhid Mütəhhəri (r) öz bəyanında bu cavabı aşağıdakı şəkildə qələmə alır: "Nə üçün Əli (əleyhis-salam)-ın imamət və xilafəti Quranda dəqiq şəkildə və şəxsən adı ilə bəyan olunmamışdır?" - sualına gəldikdə isə, belə cavab verilir ki, əvvəla: Quranın əsası məsələləri ümumi prinsip və küllü qaydalar şəkilində bəyan etməkdir. İkincisi, Allah-taala, yaxud Peyğəmbəri-əkrəm (səlləllahu əleyhi və alih) müəyyən insanların həvayi-nəfslərinə tabe olduqları üçün müxalifətə qalxacaqları bir məsələni aşkar şəkildə irəli çəkmək istəməmişdir. Hətta məsələnin irəli çəkildiyi formanı da bu kimi insanlar müəyyən yollarla yozaraq öz şəxsi fikirlərini tətbiq etmiş və demişlər ki, Peyğəmbərin məqsədi filan-filan şeylərdir. Yəni əgər bu xüsusda aşkar şəkildə bir ayə nazil olsaydı, yenə də onu başqa mənalara yozacaqdır. Peyğəmbərin (s) aşkar şəkildə buyurduğu"Bu Əli sizin mövlanızdır"kəlamından da aşkar bəyan tapmaq olarmı?! Lakin o həzrətin bu qədər aşkar şəkildə buyurduğu kəlamı yerə vurmaqla, onun vəfatından sonra Quranın aşkar bəyanını yerə vurmaq tam ayrı-ayrı şeylərdi. Mən həzrət Əli (əleyhis-salam)-ın xilafəti dövründə baş verən bir hadisəni "Xilafət və vilayət" kitabının müqəddiməsində nəql etmişəm: Yəhudi bir şəxs islamın əvvəllərində baş verən xoşagəlməz hadisələri onların üzünə çəkərək bütün müsəlmanları təhqir etmək istəyirdi (insafla desək, təhqir etməyə də yeri vardı). O, həzrət Əli (əleyhis-salam)-a dedi: – Hələ Peyğəmbərinizin dəfn işi qurtarmamışdı ki, onun barəsində ixtilaf etdiniz!

Əli (əleyhis-salam) buyurdu: "Biz Peyğəmbərin barəsində ixtilaf etmədik; bizim ixtilafımız Peyğəmbərdən bizə gəlib çatan göstəriş barəsində idi. Lakin siz dəryadan keçəndən sonra hələ dəryanın ayaqlarınızda qalan suyu qurumamış peyğəmbərinizdən istədiniz ki, tövhidin ilkin prinsipini ayaq altına qoyasınız! Siz dediniz ki, "bunların malik olduqları büt kimi bizim üçün də bir büt düzəlt!" Deməli, bizim üçün baş verənlərlə sizin üçün baş verənlər arasında çox dərin fərqlər vardır; biz Peyğəmbərin özünün barəsində ixtilaf etmədik, ixtilafımız sadəcə Peyğəmbərin buyurduğunun məfhum və mahiyyətinin nə olmasında idi! Bunların arasında çox fərq vardır...."[14]

Demək olar ki, məsum imamlarının adının, heç olmazsa, Əli (əleyhis-salam) adının Quranda aşkar şəkildə deyilməməsinin ilk əsas məqsədi Quranın təhrifdən və azaldılıb-çoxaldılmaqdan qorunması olmuşdur. Gördüyünüz kimi "Təthir" ayəsi,[15]"Təbliğ" ayəsi,[16] və "Vilayət" ayəsi[17]Peyğəmbərin qadınlarına aid olan ayələr arasında, yaxud kitab əhli ilə dostluq edilməsinin hökmlərini bəyan edən ayələrin arasında gəlmişdir ki, zahirdə məsum imamların vilayəti ilə heç bir əlaqəsi yoxdur. Lakin tədqiqatçı bir şəxs azacıq diqqət yetirməklə başa düşür ki, ayələrin bu cür düzümü əvvəldəki və sonrakı ayələrdən tamamilə fərqlidir ki, müəyyən məqsədlə həmin yerdə yerləşdirilmişdir.[18]

---

**Qaynaqlar**


*[1]İbni Bitriq, "Əl-umdə", səh. 121 və 133; Seyid Haşim Bəhrani, "Ğayətul-məram", səh. 320; Əllamə Əmini, "Əl-qədir", 2-ci cild, səh. 278*

*[2]Bu hədis mütəvatirdir və sünnü-şiələrin kitablarında gəlmişdir. Dəyərli "Əl-qədir" kitabında bu hədisin raviləri başda altmış nəfər Peyğəmbər (səlləllahu əleyhi və alih) səhabəsi olmaqla 14-cü əsrə qədər (hər bir əsrdə) qeyd olunmuşdur. Belə ki, sünnü kitablarında onlar bu hədisin raviləri hesab olunur və adları kitablarda qeyd olunmuşdur. Həmçinin Mərhum Mir Hamid Hüseyninin "Əbəqat" kitabında "Qədir" hədisinin mütəvatir olması sübuta yetirilmişdir. Bax: "Əl-qədir", 1-ci cild, səh. 14-114; İbni Məğazili, "Mənaqib", səh. 25-26; Mütəhhəri, Mürtəza, "İmamət və rəhbərlik", səh. 72-73*

*[3]"Əl-umdə", səh. 173-175; Əhməd ibni Hənbəl, "Müsnədi Əhməd", 3-cü cild, səh. 32; "Əl-qədir", 1-ci cild, səh. 51, 3-cü cild, səh. 197-201*

*[4]Əli (əleyhis-salam)-ın imaməti ilə əlaqədar hədislərin mütəvatir olması "Əl-qədir" və "Əbəqat" kitablarında çoxlu yorulmaz səylərlə isbat olunmuşdur.*

*[5]Məhəmməd ibni Həsən Hurr Amili, "İsbatul-Hudad", 3-cü cild, səh. 123; Süleyman ibni İbrahim Qənduzi, "Yənabiul-məvəddət", səh. 494; "Ğayətul-məram", 10-cu cild, səh. 267; Misbah Yəzdinin "Əqaid təlimləri"ndən nəqlən, 2-ci cild, səh. 185*

*[6]"Nəcm" surəsi, 3 və 4*

*[7]Bax: Təfsir kitabları, sözügedən ayənin təfsirində: Fəxruddin Razi, "Təfsiri Kəbir", 12-ci cild, səh. 25; "Təfsiri-nümunə", 4-cü cild, səh. 421-430; Cəlaləddin Süyuti, "Durrul-mənsur", 2-ci cild, səh. 393.*

*[8]Ustad Mütəhhərinin "İmamət və rəhbərlik" kitabının təhlilindən, səh. 38*

*[9]Nəhv (sintaktika) alimlərinin dediyinə görə "innəma" kəlməsi həsrə dəlalət edir. Bax: "Muxtəsərul-məani"*

*[10]Kuleyni, "Kafi", "höccət" kitabı, "ma nəssəllahu və Rəsuluhu ələl-əimməti vahidən fəvahidən" babı, 1-ci cild*

*[11]Rəvayətin mətni belədir:*

*[12]Bu məsələni ustad Hadəvi Tehrani özünün "İctihadın kəlam əsasları" dərs yığıncağında təqdim etmişdir ki, "İctihadın kəlam əsasları" kitabının 2-ci cildində çap olunacaqdır.*

*[13]Yenə orada*

*[14]"İmamət və rəhbərlik", səh. 109-110, 27-ci çap, "Sədra" nəşriyyatı, Tehran, 1381 (2002)*

*[15]"Əhzab" surəsi, ayə: 33 "Həqiqətən Allahın iradəsi bu olmuşdur ki, hər növ (zahiri və batini) çirkinliyi siz Əhli-Beytdən uzaqlaşdırsın və sizi pak-pakizə qərar versin."Bu ayə Peyğəmbərin qadınları ilə əlaqədar nazil olan ayələrin arasında yerləşdirilmişdir.*

*[16]"Maidə" surəsi, ayə: 67"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanları bəyan et; əgər etməsən, risaləti yerinə yetirməmişsən."Bu ayə murdar olmuş heyvan və haram ətlərlə əlaqədar nazil olan ayələrin arasında yerləşdirilmişdir.*

*[17]"Maidə" surəsinin 55-ci ("innəma vəliyyukumullah...") ayəsi yəhudi və məsihilərlə dostluq etməməklə əlaqədar ayələrin arasında yerləşdirilmişdir.*

*[18]Bu məsələ də ustad Hadəvi Tehraninin "İctihadın kəlamı əsasları" dərslərindən əldə olunur ki, kitabın 2-ci cildində çap olunacaqdır.*

# İSLAM və AİLƏ



İnsan orqanizmi müxtəlif hissələrdən təşkil olunduğu və onların arasında təbii rabitə mövcud olduğu kimi, cəmiyyət də ailələr adlanan kiçik vahidlərdən təşkil olunub. Ailənin bütün üzvləri arasında qarşılıqlı anlaşma, səmimiyyət və mehribanlıq hakim olsa və bütün üzvlər bir-birləri ilə zəncir kimi sarsılmaz əlaqə yarada bilsələr, habelə onların arasında birlik və xüsusi bağlılıq mövcud olarsa, orada düzgün və kamil bir təşkilat meydana gələr. Nəticədə, sağlam və güclü özülə malik, səadətə çatmaq üçün üzvlərinin bütün qüvvələrini səfərbər edən ailə yaranar.

Əgər bunun əksinə olarsa, həmin kiçik vahidlər arasında ziddiyyətlər yaranar və ailə hərc-mərclik ucbatından dağılıb aradan gedər. İnsanın fitrəti öz həyatını qoruyub davam etdirməyi tələb edir. Bu məqsədə çatmaq üçün o, hər vasitə ilə çalışır. İnsanın bu hədəfini təmin etmək üçün ən yaxşı və ən asan yol nəsil yetişdirməkdir. Çünki, övlad insanın vücudunun bir hissəsi və onun həyatının davamı deməkdir. Fitrətin bu kəskin istəyinə ailənin təşkil edilməsi ilə cavab verilir.

İnsanın fəaliyyətlərinin mühüm bir hissəsi və onun iqtisadi çarpışmaları ailənin yaşayış ehtiyaclarını ödəmək üçün nəzərdə tutulur.

Ailənin yaranma səbəbləri haqqında müxtəlif fikirlər mövcuddur. Bəziləri nikahın və ailənin təşkilini cinsi ehtirasların təmin olunmasına xidmət etdiyini bildirirlər. Digərləri məsələnin iqtisadi tərəfini qabardırlar və deyirlər ki, nikah iki ailə arasındakı ticarətin bir növüdür. Belə fikirlər nikahın əsil hədəfindən, onun ictimai zərurət olmasından və yeni insan nəsli yetişdirmək məqsədindən çox uzaqdır. Alman sosioloqu Muller evlənmənin səbəbləri barəsində belə deyirdi:

«Fərdləri evlənməyə sövq edən üç amil var: İqtisadi ehtiyac, övlada yiyələnmək meyli və eşq. Hər bir cəmiyyətdə bu amillərin olmasına baxmayaraq, onların əhəmiyyəti müxtəlif dövrlərdə bir-birindən fərqli olmuşdur. Başər həyatının əvvəllərində iqtisadi amilin əhəmiyyəti daha böyük idi. Halbuki, qədim sivilizasiyalarda övlada yiyələnmək meylləri bu günkü cəmiyyətlərdən qat-qat üstün olmuşdur».

İslam ailə təşkili məsələsini təşviq etməklə yanaşı, ümumi mənəvi təmizliyi qorumaq üçün ən yaxşı vasitə rolunu oynayır.

«Allah sizin üçün özünüzdən [yəni öz cinsinizdən] zövcələr yaratdı. Zövcələrinizdən də sizin üçün oğullar və nəvələr əmələ gətirdi, pak nemətlərdən sizə ruzi verdi».[ Nəhl surəsi 72-ci ayə.]

İslam cavanların cinsi qüvvələrinin öz təbii yolundan çıxmasının qarşısını almaq üçün və onlara bu ehtirasların təzyiqindən nicat verməkdən ötrü ailə başçılarına həddi-büluğa çatan vaxt cavanların evlənməsi üçün lazım olan vəsaitin hazır edilməsini tövsiyə edir. Çünki, özləri üçün ailə qurmaq imkanına malik olmayan cavanlar cinsi ehtirasların təsiri altında fəsad və müxtəlif təhriklərlə üzbəüz qalırlar. Ona görə də İslam dini ata-anaları öz övladlarını evləndirmək işində məsul hesab edir. Bununla valideynlər övladlarının imanının və əxlaqının qorunmasına böyük yardım göstərmiş olurlar. İslam ailə ocağının təşkilini müxtəlif fəsad və pozğunluqların qarşısını almaq üçün yeganə yol sayır. Həqiqətən sağlam ailə həyatı insan cəmiyyətinin xoşbəxt yaşayışını təmin edən mühüm amillərdəndir.

Bir gün Peyğəmbər (s) minbərdən xalqa belə buyurdu: «Ey müsəlman milləti! Sizin qızlarınız ağacdakı yetişmiş meyvələr kimidirlər. Əgər vaxtı çatdıqda meyvə dərilməsə, günəş işığı və başqa amillər onu korlayar. Qızlarınızı da vaxtında ərə verməsəniz fəsadlar yarana bilər. Çünki onlar da bəşərdirlər və onların da insani ehtiyaclarına cavab verilməlidir».

İmam Baqir (ə)-ın yaxın adamlarından biri olan Əli ibni Əsbat, o Həzrətə yazdığı məktubda belə deyirdi: «Qızlarıma layiq və münasib həyat yoldaşı tapa bilmirəm. Vəzifəm nədir?» Həzrət cavabında belə yazmışdı:

«Ürəyin istədiyi cavanların tapılmasını gözləmə. Çünki, Peyğəmbər (s) buyurub: Əgər qızlarınıza evlənmək üçün cavanlar elçilik etsələr və onların dini və əxlaqi cəhətdən eybləri olmasa, qızlarınızı belələrinə ərə verin. Bundan qeyri surətdə oğlan və qızlarınızın fəsada düşməklərindən ehtiyat edin».

İslam evlənmək məsələsində heç bir maneə yaratmır. Əksinə, bunu ictimai mənafeyə xidmət kimi qiymətləndirir və bu yolda var gücü ilə çalışır. Evlənmək insanın cism və ruhunu sakitləşdirməklə yanaşı, bəşər səadətinin təməlini də qoyur, cəmiyyətdə əxlaqi və cinsi stabillik yaradır. Çünki, ruhunda təşviş və nigaranlıq olan şəxslər həqiqi səadətə çata bilmirlər.

İslam nöqteyi-nəzərindən insani bağlılıq ürəklərin müqəddəs bağlılığı və rahatlıq amilidir. Nikah ona görədir ki, bunun sayəsində hər iki tərəf sağlam və rahat yaşamaq imkanı əldə edirlər. Bu da ona paklıq və təmizlik bəxş edir.

«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaranması da Onun qüdrət nişanələrindəndir».

(Rum surəsi 21-ci ayə)

İslam dini ailə üzvləri arasında əlaqələri möhkəmlətmək məqsədilə, buna aid olan bütün qayda-qanunları göstərir və onları çox dəqiqliklə tanıtdırır. Qurani-Kərim evlənməni «möhkəm peyman» adlandırır[2] və ondan məqsədin maddi hədəflər olmadığını göstərir. Ailə üzvləri arasında mənəvi vəhdətin yaranması üçün, İslam onların bütün vəzifələrini kamil surətdə müəyyən etmişdir.

«Ər və arvadın bir-birlərinin boynunda qarşılıqlı haqları var»[ Bəqərə surəsi 228-ci ayə.]

Ər iqtisadi məsələlərə və ailənin maddi cəhətdən təmin edilməsinə cavabdehdir. Qadın isə övladın qayğısına qalmaq, onların tərbiyəsi ilə məşğul olmaq və ailə işlərinin tənzim edilməsi vəzifəsini öhdəsinə alır.

İslam dini qadının öz fitri vəzifələrini yerinə yetirməyi tövsiyə edir və onun hüquqlarının tapdalanmasına icazə vermir. Dinimiz qadının həm evdə, həm də ondan xaricdə ağır işlərlə həddən artıq məşğul olmasını qəbul etmir.

Əlbəttə, evdən xaricdə qadının işləməsinə zəruri hallarda icazə verilir. Amma həm fərdi, həm də ictimai işlərdə qadının yad kişilərlə birgə fəaliyyəti mümkün qədər məhdud olmalıdır.

Şübhəsiz ki, hər təşkilat və qurumun müəyyən bir başçıya ehtiyacı var. Ailə də özü-özlüyündə təşkilatdır və onun da məsuliyyətini öhdəsinə alan bir rəhbər olmalıdır. Başçısız qurum isə hərc-mərcliyə düçar olur və nəticədə məhv olub aradan gedir. Buna görə də ailənin başçılığını kişiyə və ya qadına tapşırmaq lazımdır. İndi görəsən onlardan hansı biri bu vəzifəyə daha layiqdir? Əlbəttə, bu təşkilatın məsuliyyətini qəbul etməyə, övladların qəyyumluğunu öhdəsinə almağa, başçılıq vəzifələrini yerinə yetirməyə və ailənin idarə olunmasının ağır yükünə dözməyə kişi qadından daha layiqlidir. Kişi ailədə hərc-mərcliyin qarşısını almağı qadından daha yaxşı bacarar. Qadının fitrətində mehribanlıq və məhəbbət daha dərin kökə malikdir. Ancaq kişi təbiət etibarilə hiss və atifədən daha çox əqlə tabe olur. Ona görə də «fikir» məsuliyyət qəbul etməkdə «mehribanlıqdan» daha münasibdir. İslam ailəyə başçılıq üçün kişini seçmişdir. Bu isə ailədə qadınla məsləhətləşmək, həmkarlıq və qarşılıqlı anlaşma ilə ziddiyyət təşkil etmir. Kişi ailəni ürəyi istədiyi kimi idarə etməməlidir. İslam kişini ailə başçısı təyin etsə də, qadına qarşı zor işlətməyi bəyənilməz bir iş sayır.

«[Qadınlar] açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin [mehriyyənin] bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl rəftar edin».

[ Nisa surəsi 19-cu ayə.]

Kişi ailənin məsulu və keşikçisidir. Qadın da evin, ərinin və övladlarının məsuliyyətini öz öhdəsinə almalıdır. Bizim əsrdə ər-arvad münasibətlərinin və ailə tellərinin bu qədər zəifləməsi, habelə boşanmaların sayının artması, ən əhəmiyyətsiz və kiçik hadisələr üzündən ailələrin dağılması, nikahın məsuliyyətinə və həyati məsələlərə diqqətsizlik ucbatından olur.

Bir çox şəxslər evlənmə məsələlərində səmimiyyət və həmkarlıq, qadınla kişinin xüsusiyyətlərinin uyğun gəlib-gəlməməsinə diqqət yetirmir, ailə qurarkən ən çox sərvət, şəhvət və zahiri gözəlliklərə fikir verirlər. Mənəvi və ruhi məsələlərə əhəmiyyət verilmədiyi üçün yenicə qurulmuş ailə həyatı tez bir zamanda sarsılır, müxtəlif xüsusiyyətli ər-arvad arasındakı ziddiyyətlər günbəgün artır və dərinləşir. Ailədə hərc-mərclik, nizamsızlıq hökm sürdükdə isə o, tez bir zamanda dağılır. İslam ailədə belə münasibətləri qəti şəkildə rədd edir. Ailənin təşkili sərvət, şəhvət və zahiri gözəlliklərə görə olmamalıdır. Nikah iman, iffət və əxlaqi fəzilətlərə əsasən bağlandıqda və ailə İslami qaydalar əsasında idarə olunduqda, yuxarıda göstərilən arzuolunmaz hallar heç vaxt meydana çıxmır.

İslam Peyğəmbəri (s) belə buyurur:

«Qadınla yalnız onun gözəlliyinə görə evlənən şəxslər, bu izdivacda xoşuna gəldiyi və axtardığı şeyləri tapa bilməyəcək. Təkcə sərvətə görə evlənənləri isə, Allah-taala özbaşına buraxar. Ona görə də sizə imanlı və iffətli zövcələr seçmək lazımdır».

İslami hədislərdə insanlar evlənməyə və ailə qurmağa təşviq edilirlər. Səhv və ağılsız bəhanələrlə ailə qurmayan şəxslər kəskin şəkildə tənqid olunurlar.

Rəsuli-Əkrəm (s) buyurur:

«Evlənmək və nikah mənim ayinlərimdəndir. Bu ayinə əməl etməyənlər məndən deyillər».



İslam nöqteyi-nəzərindən alçaq, əxlaqsız və şəriətə riayət etməyən adamlarla evlənmək bəyənilmir. İslam Peyğəmbəri (s) belə buyururdu:

«Çirkin və bulanıq bataqlıqların ətrafında bitən bitki və güllərdən dərməyin».

O Həzrətdən soruşdular: «Bataqlıq ətrafındakı bitkilər nədir?»

Peyğəmbər (s) belə cavab verdi:

«Tərbiyəsiz və imansız ailədə böyümüş gözəl qadınlar».

Təbiidir ki, əxlaqi və dini qayda-qanunlara riayət etməyənlər ailənin səadət və xoşbəxtliyini təmin edə bilməzlər. Ona görə də İslam nikahda hər iki tərəfin yüksək əxlaqi keyfiyyətlərə malik olmasına xüsusi diqqət yetirir. Fəsad törədə biləcək nəslin yaranmasına səbəb olan imansız ailələrdən çıxmış adamlarla evlənməyi məsləhət görmür. Cavanlar ailə qurarkən İslamın qayda-qanun və tövsiyələrinə diqqət etsələr, gələcəkdə möhkəm və əsil müsəlman ailəsinin yaradılmasına səbəb ola bilərlər. Müasir dövrdə bəzi cavanlar elə təsəvvür edirlər ki, həyat yoldaşı seçməyin düzgün yolu evlənənə qədər bir-birlərilə gəzib-dolanmaq və müəyyən münasibətlərdə olmaqdadır. Halbuki, bu cür qanunsuz təmaslar əksər hallarda fəsad və əxlaqi pozğunluqlarla nəticələnir. Məhz bu məqsədlə öz müqəddəratını

«gələcək Həyat yoldaşına» tapşıran, bir müddətdən sonra səhv etdiyini başa düşən aldanmış qızların statistikası adamı dəhşətə gətirir. İnsanların bir-birlərini yaxşı tanıması adətən uzun illər boyu davam edən münasibətlər nəticəsində baş verir və qısa müddət ərzində gələcək «ər-arvad» heç vaxt bir-birləri barəsində düzgün və obyektiv təsəvvürlər əldə edə bilməzlər. İnsanların əxlaqi və ruhi xüsusiyyətləri onların müxtəlif hadisələrlə və həyati sınaqlarla üzləşdiyi vaxt daha yaxşı üzə çıxır. Səbr və dözümlülük, mətanət, fədakarlıq və sair insani keyfiyyətlər çətin məqamlarda, həyatda qarşıya çıxan təbii imtahanlarda bəlli olur. Amma gəzinti, əyləncə və eyş-işrət vaxtı belə xüsusiyyətlər çox nadir hallarda aşkar edilir. Görəsən bulvarda, kinoda, restoranda və ya digər əyləncə yerlərində görüşməklə, kiminsə xüsusiyyətlərini lazımi şəkildə müəyyənləşdirmək olarmı? Əlbəttə, qəlbi məhəbbət hissi ilə döyünən gənclər heç vaxt öz nöqsanlarını biruzə vermir, əksinə süni şəkildə olsa da, özlərini ən yaxşı xüsusiyyətlərə malik adamlar kimi göstərməyə çalışırlar. Ehtirasların coşğun bir dövründə belə münasibətlər vasitəsilə cavanlar bir-birlərinə obyektiv qiymət verə bilərlərmi? Bu şəraitdə qurulan ailə həyatı adətən, axıradək tab gətirə bilmir. Bu cür «tanışlıq» nəticəsində qurulan ailədə ər-arvad sonradan öz eyb və nöqsanlarının şahidi olurlar.

İslam dini hər bir şəxsə evlənməzdən qabaq öz gələcək həyat yoldaşının zahiri qiyafəsini görməyə icazə verir və onun ruhi, əxlaqi xüsusiyyətləri haqda ətraflı məlumat əldə etməyi tövsiyə edir.

Ailənin səadəti ilk növbədə qadınla kişi arasındakı rabitənin və onların birgə yaşayışının necəliyindən asılıdır. Onların rabitələri nə qədər möhkəm olsa, o qədər də ailə xoşbəxtliyi artıq olacaq. Ruhi bağlılıq və çətinliklər qarşısında fədakarlıq həqiqi ailə səadətinin bərqərar olması üçün əsas şərtlərdəndir.

İslam dinində ailə mühitində yaşayan kişi və qadınlar üçün hüquqlar müəyyən edilmiş və onların hər birinin vəzifələrini dəqiq göstərən qayda-qanunlar təyin olunmuşdur. Bundan əlavə, əxlaqi cəhətdən də ailənin səadətini təmin edən göstəriş və tövsiyələr nəzərdə tutulmuşdur. İslam Peyğəmbəri (s) belə buyurur:

«Ümmətimin ən yaxşı kişiləri öz ailəsi ilə xoş rəftar edənlərdir».

«Sizlərdən ən yaxşınız öz ailəsi ilə daha yaxşı rəftar edən kəslərdir və mən sizin hamınızdan çox öz ailəmlə xoş rəftar edirəm».

İslam dini qadının öz əri ilə xoş rəftarını «müqəddəs cihad» sayır.

Peyğəmbər (s) belə buyurur:

«Qadının cihadı öz əri ilə yaxşı davranmaqdır». Müasir dövrdə cavanların evlənməsinə mane olan amillərdən biri də, ailə qurmaq üçün nəzərdə tutulan xərclərin həddindən artıq ağır olmasıdır. Cavanların əksəriyyəti belə böyük maddi imkanlara malik deyillər və bu da onların vaxtında ailə qurmasının qarşısını alır. İslam dini evlənmə xərclərinin indiki qədər yüksək olmasının qəti əleyhinədir və izdivacın ən sadə şəkildə, yüngül xərclərlə həyata keçirilməsini tövsiyə edir.

İslam Peyğəmbəri (s) belə buyurur:

Qadının qədəmlərinin düşərgəli və mübarək olması, onun istəklərinin asanlığında və mehriyyəsinin az olmasındadır».

Şübhə yoxdur ki, ailə ixtilafları zamanı qadının əlində «ağır mehriyyə» adlı təzyiq vasitəsi olsa, özünü daha sərt aparar və tərslik edər. Həmin tərslik də ailənin dağılması ilə nəticələnə bilər. Bir gün Rəsuli-Əkrəm (s) öz yaxın adamları ilə birgə söhbət edirdi. Bu zaman cavan bir qadın ona yaxınlaşıb salam verdi və dedi: «Ey Allahın Rəsulu! Mən bir cavanla evlənmək istəyirəm».

Peyğəmbər (s) ətrafındakı cavanlara üz tutub buyurdu: «Kim bu qadınla evlənmək istəyir?» Bir nəfər buna razı olduğunu dedi. Həzrət (s) ondan soruşdu: «Onun mehriyyəsini nə ilə ödəyəcəksən?» Həmin adam heç nəyə malik olmadığını bildirdi. Həzrət (s) buyurdu: «Xeyr! Belə olmaz».

Digər bir cavan evlənməyə hazır olduğunu bildirəndə, Peyğəmbər (s) ondan soruşdu: «Quran oxumağı bacarırsanmı?»

Cavan müsbət cavab verdikdə, Həzrət (s) belə buyurdu: «Bu qadına Quran oxumağı öyrətsən, səni onunla evləndirərəm.»

İslam maddi çətinliklərin ailə qurmağa maneçilik törətməsinin əleyhinədir və sadə üsullarla evlənməyi təklif edir. İslam dini kasıbların məhrumiyyətlərinin üzərinə başqa çətinliklərin əlavə olunmasını istəmir.

«[Ey möminlər!] Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər».

[Nur surəsi 32-ci ayə.]

Təbiidir ki, hər bir şəxs öz yaşayışını təmin etmək üçün daim çalışır. Amma evləndikdən sonra ailə-məişət problemlərini həll etmək üçün daha artıq səy göstərir. Buna görə də evlənmək həyat səhnəsində inkişaf amilinə çevrilə bilər. Qərb ölkələrində cinsi pozğunluqların artması və qadın-kişi münasibətlərindəki misilsiz açıq-saçıqlıq cavanların ailə qurmasına mane olan və tədricən nikahın əhəmiyyətini heçə endirən səbəblərdəndir.

Əyyaşlıq və cinsi azadlıq cavanlar arasında evlənməyə olan meylləri kəskin surətdə azaldır.

Qərbdə nikahın sayının azalması və boşanmaların artması «mədəni cəmiyyət»lərdə ailə əsaslarının açıq-aşkar dağılma prosesinin sürətlənməsini göstərir.

Məşhur sosioloq Villdorant yazır:

Yeni cəmiyyətlərdə ailə təməli düzgün qoyulmur və əksər hallarda o, cinsi əlaqə əsasında qurulur. Buna görə də tez bir zamanda öz möhkəmliyini itirir. Ər və arvad hər biri öz «şəxsi» həyatını yaşayır. Onlar arasında əvvəllər mövcud olan coşğun ehtiraslar soyuyur və əlaqələr zəifləyir. Bir-birlərini aldatmaq halları və ardıcıl xəyanətlər görünməyə başlayır.

Böyük şəhərlərdə ailə qurmaq məsələsi demək olar ki, tənəzzül etməkdədir. Kişilərin öz həyat yoldaşlarından uzun müddət zövq ala bilmələri problemə çevrilib. Cinsi ehtiraslara əsaslanan evlənmələrin sayı günbəgün artır. Belə şəraitdə ər-arvadın qarşılıqlı xəyanətləri və ailəyə sədaqətin mənasız bir iş olması adi hal alır. Ailə öz müqəddəsliyini itirir, üzdəniraq adətlər ictimaiyyətdə ümumi bəlaya çevrilir.»

Dünya xalqları İslamda qadına verilən hüquqlardan, yüksək mövqedən və həqiqi azadlıqlardan xəbərsizdirlər. Qərbdəki qadın «azadlığı» isə cəmiyyətdə əxlaqsızlığın artmasından başqa bir şeyə gətirib çıxarmayıb.

İslam dini öz hüquq və azadlıqları çərçivəsində qadına yüksək imtiyazlar verir və bununla yanaşı, onların cəmiyyətdə fəsadlara səbəb ola biləcək hər hansı formada davranışının qarşısını alır.

«Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib

edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik». [ Nəhl surəsi 97-ci ayə.]

İslam nöqteyi-nəzərindən kişi və qadın bir-birlərini təkmilləşdirirlər. Zəriflik və ya sərtlik onların heç biri üçün məziyyət hesab olunmur.

Allah onların dualarını qəbul edərək cavab verdi: «İstər kişi, istərsə də qadın olsun, mən heç birinizin əməlini puça çıxarmaram. Siz bir-birinizdənsiniz».[ Ali-İmran surəsi, 195-ci ayə]

Əxlaqi fəzilətlərə və yüksək imana malik olan bir çox qadınlar həqiqi səadətə nail olurlar. Amma nəfsani istəklərə, şəriətə zidd olan meyllərə uyan bir çox kişilər bədbəxtliyə düçar olurlar.

İslamın ilk çağlarında qadınların hüququ, imtiyaz və mövqeyi o qədər yüksəlmişdi ki, bəzən İslam hökuməti qadınlarla bağlı məsələlərə müdaxilə etməyə məcbur olurdu. Bütün sünni və şiə mənbələrinin təsdiq etdiyi belə bir tarixi hadisə diqqətəlayiqdir. Bir gün ikinci xəlifə Ömər minbərə çıxıb belə dedi: «Hər kəs 500 dirhəmdən artıq mehriyyə versə, onun artıq hissəsini müsadirə edib beytul-mala qatacağam!»

Orada iştirak edən qadınlardan biri Ömərə etiraz edib dedi: «Sizin bu əmriniz Allah hökmlərinin ziddinədir! Çünki, Allah-taala belə buyurur:

«Onlardan [qadınlardan] birinə çoxlu mal vermiş olsanız da, heç bir şeyi geri almayın».[ Nisa surəsi 20-ci ayə.]

Ömər öz səhvini başa düşüb belə dedi: «Kişi səhv etdi, qadın isə həqiqəti dedi.» Bu tarixi hadisə bir daha İslamda qadının hansı yüksək mövqeyə malik olmasını sübut edir. Bir qadın xəlifə qarşısında etiraz edir və o da, cəmiyyətin hüzurunda öz səhvini etiraf edərək, Allah qanunlarına zidd olan göstərişini ləğv etməyə məcbur olur.

Bəli, İslam qadınları əsarət və köləlikdən qurtarıb, onlara kişilərlə bərabər hüquqlar verən bir dindir. Bu bərabərlik riyazi bölgülər əsasında deyil, fitri və təbii xüsusiyyətlərə görədir. Bu, zatən və mahiyyətcə mütləq bərabərlik deyil. Yaşayış şəraitində vəzifə etibarilə qadınla kişinin bərabərliyi yalnız xəyal aləmində mümkündür.

İslam öz qanunvericiliyində bəşərin təbii və fitri ehtiyaclarını həmişə nəzərə alır. Bu səbəbdən də qadınla kişinin təbii bərabərliyini təsdiq edir, mümkün olmayan şəraitdə isə məsələyə başqa meyarlarla yanaşır.

586-cı ildə Fransada dini şura qadınlar haqqında belə bir qərar çıxarmışdı: «Qadınlar kişilərə xidmət etmək üçün yaradılmış bir növ insandır».

Son əsrə qədər Avropa ölkələrində qadınlar hətta mülkiyyətdən istifadə etmək hüququndan məhrum idilər. İngiltərədə 1850-ci ildə qəbul edilmiş qanuna görə, qadınlar ölkə vətəndaşları sayılmırdılar və heç bir mülkiyyət hüququna malik deyildilər. Hətta əyinlərindəki paltarları da onların mülkiyyəti hesab edilmirdi! Səkkizinci Henri isə qadınlara dini kitab oxumağı qadağan edən bir fərman vermişdi.

1882-ci ildə Britaniyada təsdiq edilmiş yeni bir qanuna görə qadınlar həmin dövr üçün «misilsiz» hüquq əldə edirdilər. Onlar qazandıqları pulu istədikləri kimi xərcləyə bilər və öz ərlərinə təhvil verməmək ixtiyarı qazanırdılar!

Amma İslam dini 14 əsr bundan qabaq qadının xüsusi mülkiyyətə sahib olması və onun iqtisadi cəhətdən müstəqilliyini elan etmişdi. Qadın ticarətdən, hədiyyədən və sair yolla əldə etdiyi maliyyə vəsaitlərini ərindən asılı olmayaraq, istədiyi kimi xərcləməkdə azad və müstəqildir. Həqiqətən bu qanun İslam dini üçün iftixar sayılır.

«Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır». (Nisa surəsi, 32-ci ayə.)

Mülkiyyətlə bağlı hüquqlardan əlavə, İslam dini evlənmək məsələsində də qadına azadlıq və müstəqillik verir. İslam nöqteyi-nəzərindən qadının razılığı olmazsa, onu heç kim ərə getməyə məcbur edə bilməz. Ümumiyyətlə, qadınla əlaqədar elə bir məsələ yoxdur ki, İslam qanunları onu ən yaxşı şəkildə həll etməmiş olsun.

Təəssüflər olsun ki, bu gün bir çox Şərq ölkələrində qadınların hüquqları lazımı formada təmin olunmur. Bu isə həmin ölkələrin ictimai, siyasi və iqtisadi vəziyyəti ilə bağlıdır. Bir çox müsəlman ölkələrində İslam qayda-qanunları deyil, qondarma və dinimizə zidd olan adət-ənənələr hökm sürür. Həmin ölkələrdə qadın hüquqlarının tapdalanmasında İslam dini deyil, bu dövlətlərin və hökumətlərin özləri günahkardırlar. İqtisadi çətinliklər şərq qadınlarının ağır vəziyyətə düşməsinə səbəb olan amillərdəndir. Belə ölkələrdə adamların bir hissəsi naz-nemət içində yaşayır, böyük bir hissəsi isə yoxsulluğa düçar olurlar. Bu şərait ailə mühitinə də təsir edir və ondan ən çox əziyyət çəkənlər isə qadınlar olurlar. Onlar öz şəri hüquqlarından istifadə edə bilmir və kişilərin öz hədlərini aşması adi hala çevrilir.

Aydındır ki, yoxsul cəmiyyətdə əxlaqi dəyərlər qiymətdən düşür, zor və ədalətsizlik bərqərar olur. Qadınların mövqeyini alçaldan səbəb məhz, həmin yoxsulluq və cəmiyyətin qeyri-islami qayda-qanunlarla yaşamasıdır.

İslam isə yoxsulluq və ədalətsizliklə mübarizə aparan bir dindir. O, sərvətin bütün adamlar arasında ədalətlə bölünməsini tövsiyə edir və qadınların hüquqlarının təmin olunması uğrunda mübarizə aparır.

Görəsən «mədəni cəmiyyət» uğrunda mübarizə aparan müasir qərb dünyasında qadın hansı məqam və dəyərə malikdir. Müasir dövrdə qadının mövqeyi demək olar ki, tənəzzülə uğrayıb. Çünki, bu dövrdə qadın kişinin heyvani ehtiraslarını doyurmaq üçün alətə çevrilib. Qadınlardan kütləvi informasiya vasitələrində, reklamlarda, restoran və ticarət mərkəzlərində təbliğat vasitəsi kimi istifadə edirlər. Amerikalı alimlərdən biri belə deyir: «Bu gün açıq sinəsini kişilərə göstərən bir qadın bir milyon, bir yumruq zərbəsi ilə adamı öldürə bilən kişi isə yarım milyon dollar pul qazanır. Amma öz elm və zəkası ilə milyonlarla insana xidmət yolunda saçını ağartmış bir alimin qazancı normal yaşayışı üçün kifayət etmir».

Professor Albert Kanli öz məqaləsində belə bir həqiqəti açıqlayırdı:

«1919-cu ildə İngiltərə qadınları öz hüquqlarını əldə etmək üçün Parlamentlə mübarizə apardıqda, hətta ölüm və zindandan da qorxmurdular. Amma o zaman onların heç biri bilmirdi ki, gələcəkdə bu «hüquq azadlığı» qadınların ictimai vəziyyətini tam ayrı bir istiqamətdə dəyişib, onların bəzilərini pul qazanmaq üçün alətə çevirəcək. Əgər o vaxt mübarizə aparan qadınlar indi sağ olsaydılar, öz əvvəlki vəziyyətlərinin bərpa edilməsi üçün yenidən mübarizəyə başlayardılar».

**Musəvi Lari**

*"İslam Və Qərb Mədəniyyəti" kitabından*



# ƏRAF

## Cənnətlə Cəhənnəm arasında

Əraf cənnətlə cəhənnəm arasında uca divar şəklində maneə kimi təsəvvür edilir. Cənnət və cəhənnəm əhli bu divarın arxasından bir-birini görməyəcək, amma bir-birinin səsini eşidə biləcək (həyət qonşuları kimi).

Bəzi rəvayətlərə görə, qiyamət günündə peyğəmbərlər və imamlar, xalis möminlər və şəhidlər həmin divarın üzərində durub ümmətin əhvalına baxacaq, bəzi insanlara şəfaət edəcəklər. Qurani-kərimdə buyurulur: «Onların ikisinin (cənnət əhli ilə cəhənnəm əhlinin) arasında pərdə və əraf üzərində isə insanlar vardır ki, onlar hamını üzündən tanıyıb cənnət əhlinə: «Sizə salam olsun!» – deyə, müraciət edərlər. Bunlar çox istədiklərinə baxmayaraq, hələ ora (cənnətə) daxil olmamış kimsələrdir. Onların nəzərləri cəhənnəm əhlinə çevrildiyi zaman: «Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!» – deyərlər. Əraf əhli üzdən tanıdıqları adamlara müraciət edib: «Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi» – deyəcək» (Əraf, 46-48).

Ərəb dilindən tərcümədə «yüksəklik, təpə, bel» mənalarını verən «ürf» sözünün cəmidir. Ərəblər atın yalına və xoruzun pipiyinə də (bədənin yuxarı hissəsində yerləşdiyinə görə) ürf deyirlər.

Bəzi rəvayətlərə görə isə, əraf xüsusi bir yerdir ki, nə cənnətə, nə də cəhənnəmə layiq olmayan adamlar ora aparılacaqlar. Məsələn, yetkinlik yaşına çatmayan, günahı və savabı hesaba alınmayan uşaqlar, əqli cəhətdən nöqsanlı insanlar, savabı ilə günahı tam bərabər gələn adamlar və s. Ərafda nə cəhənnəm əzabı, nə də cənnət ləzzəti var. Əraf bunların arasında fərqli bir şəraitə malik məkandır. Yuxarıda adları çəkilən təbəqələr ərafda adi qaydada ömürlərini sürəcəklər.

Alimlərin bəziləri bu iki nəzəriyyəni birləşdirməyə çalışmış və belə bir fikir irəli sürmüşlər ki, qiyamət günündə yüksək dərəcəli möminlər çox sürətlə cənnətə daxil olacaqlar. Bunlardan daha aşağı səviyyədə olan şəxslərin isə cənnətə buraxılmaları yubadılacaq. Onlar öz əməllərinə müvafiq olaraq bir müddət ərafda qalmalı olacaqlar. Yəni günahları nisbətən çox olan möminlər ərafda müvəqqəti saxlanılacaqlar. Sonra onlara yenə öz dərəcələrinə uyğun olaraq cənnətə daxil olmaq icazəsi veriləcək. Ümmətin başçıları və seçilmiş üzvləri də bu cür insanları tək buraxmamaq üçün ərafda onlarla bir cərgədə duracaqlar. Adi həyatda da çox zaman qoşunun körpüdən və sair maneələrdən keçidi zamanı sərkərdənin ən son cərgədə durduğunu və körpünü ən axırda keçdiyini görürük. Müqəddəs şəxslər də öz günahkar dindaşlarını tək buraxmamaq üçün ərafda onların yanında olacaqlar (Təfsiri-nümunə, VI, 189-190).



# İmam Musa Kazımdan (ə) əxlaq dərsi

*Bəzən insan bir pisliyin cavabını mehribancasına verən zaman, qarşı tərəfin dəyişməsinə səbəb olur. Əziz İmamlarımız (ə) bunun nümunəsini bizə irs qoymuşlar. İmam Kazım (ə) da belə mübarək nümunələr təqdim etmişdir. Mədinədə bir kişi var idi ki, nə zaman İmamı (ə) görsə idi, onu təhqir edərdi. Bir gün İmam (ə) yoldaşları ilə bir yerdə həmin insanın tarlasının yanından keçir və o, həmişə olduğu kimi təhqiredici sözlər deməyə başlayır. Yoldaşları bu səhnəni görüb tab gətirə bilmirdilər və İmamdan (ə) xahiş edirdilər ki, onlara bu kişinin cavabını vermək üçün icazə versin. İmam (ə) isə bu işə icazə vermir. Bir gün İmam (ə) həmin kişinin tarlasına gedir ki, onunla görüşsün, ancaq həmin kişi pis işindən əl çəkmir və İmamı (ə) təhqir etməyə başlayır.*

*İmam (ə) ona yaxın gedib atından düşdü. Kişi bu sözlərinin sayını artırır. İmam (ə) mehriban təbəssümlə ona buyurur: "Bu tarlanın əkin qiyməti nə qədərdir?". Kişi dedi: "Yüz dinar". İmam (ə) buyurdu: "Ümidin varmı ki, ondan bu qədər səmərə götürəcəksən?". Kişi qabalıqla dedi: "Mənim qeyb elmim yoxdur ki, nə qədər payıma düşdüyümü bilim". İmam (ə) buyurdu: "Mən demədim ki, sənə nə qədər fayda çatacaqdır. Soruşdum ümidin varmı ki, fayda götürəcəksən?". Kişi dedi: "Fikirləşirəm ki, bu tarladan iki yüz dinar fayda götürəm". Bu zaman İmam (ə) içərisində üç yüz dinar olan kisəni ona verir və deyir: "Bunu al və əkinin də biçinin də özünün olsun. Ümid edirəm ki, Allah Təala bu tarladan gözlədiyin faydanı sənə nəsib etsin". Kişi xəcalətli halda bu kisəni alır və İmamın (ə) alnından öpür. Öz çirkin əməlinə görə üzr istəyir.*

### *Bu, hamı üçün böyük bir dərs olmalıdır.*

İmam Kazım (ə) davamlı olaraq mehriban olmağı tövsiyə edərdi. Yəqub adlı bir nəfər və dostu Şuəyb İmam Kazımın (ə) yanına gəlirlər ki, həm həccin yorğunluğunu üstlərindən atsınlar və həm də İmamı (ə) görsünlər. İmamın (ə) evinə daxil oldular və salam verəndən sonra İmam Kazım (ə) üzünü Yəquba çevirib buyurdu: "Ey Yəqub! Sən Mədinəyə dünən gəlmisən. Qardaşınla filan məhəllədə görüşmüsən. Lakin bir-birinizlə dalaşmısınız. Bir-birinizi təhqir etmisiniz. Siz gərək bu cür çirkin iş görməyəsiniz. Söyüş söymək mənim və atalarımın yolu deyildir. Bizim davamçılarımızdan uzaqdır ki, bir-birini söysünlər. Ey Yəqub! Bu işə görə ölüm aranıza fasilə salacaqdır. Qardaşın İshaq, səfər zamanı şəhərinə və evinə çatmamış dünyasını dəyişəcəkdir. Sən də bu rəftardan peşman olacaqsan. Allah ömrünüzü qısa edəcəkdir". Yəqub əl-ayaqdan düşdü və soruşdu: "Qurban olum, mənim əcəlim nə zaman çatacaqdır?". İmam (ə) buyurdu: "Sənin də əcəlin çatmışdı, ancaq sən filan mənzildə yol yoldaşına xidmət etdiyin və onu hədiyyə ilə sevindirdiyin üçün Allah ömrünü 20 il artırmışdır".

Şuəyb heyrətli şəkildə bu söhbətə qulaq asırdı. Bir müddətdən sonra Yəqubu görüb qardaşının halını soruşur. O, deyir ki, İmamın (ə) buyurduğu kimi, qardaşı evinə çatmamış dünyasını dəyişmişdir. Elə yoldaca torpağa basdırılmış və ailəsini görməmişdir.

Bir gün Əbu Hənifə İmam Sadiqin (ə) xidmətinə gəlir və İmam (ə) bu zaman yatmışdı. O, əyləşib İmamın (ə) oyanmasını gözləyir. Onun yanına 5-6 yaşlı bir oğlan uşağı gəlir və Əbu Hənifə, bu uşağın kim olduğunu soruşur. Deyirlər ki, o, Musa ibni Cəfərdir (ə). Öz-özünə düşünür ki, sualımı bəlkə bu uşağa verim. Deyir: "Ey Rəsulallahın övladı! Bəndələrin günahı haqqında nəzəriniz nədir? Bəndə onu görür, yoxsa Allah onu yerinə yetirməsinə razı olur?". 5-6 yaşlı Həzrət Musa Kazım (ə) onunla üzbəüz əyləşir və buyurur: "Üç haldan xaric deyildir: ya Allah onu yerinə yetirir, ya bəndə, ya da hər ikisi. Əgər Allah yerinə yetirirsə, bəs onda günah etməmiş bəndəsinə niyə cəza verir. Bu, Adil Allahdan qəbul olunmaz. Əgər Allah və bəndə bir yerdə yerinə yetiribsə, niyə güclü şərik zəif şərikinə cəza versin ki. Halbuki, özü ona yardım etmişdir". Əbu Hənifə Həzrətin (ə) sözünü kəsir və deyir: "Bu iki hal mahaldır, qeyri-mümkündür". Həzrət Kazım (ə) buyurur: "Bəli, ona görə də bir hal qalır ki, bəndə özü tək bu günahı etmişdir və özü bu məsuliyyəti öhdəsinə götürmüşdür".

Bir nəfər İmam Kazıma (ə) bir neçə sual vermək üçün gəlir və suallarının cavabını eşidəndən sonra İmam (ə) mehriban şəkildə ondan soruşur: "İstəyərsənmi ki, dünyada ömrün uzun olsun?". Kişi deyir: "Bəli". İmam (ə) buyurur: "Nəyə görə çox qalmaq istəyirsən?". Kişi deyir: "Tövhid" surəsini çoxlu tilavət etmək üçün. İmam (ə) bir müddət sükut etdi və bir qədərdən sonra ona buyurdu: "Bizim dostlarımızdan hər kim Quranın tilavətini yaxşı öyrənmədən ölərsə, ona qəbir aləmində öyrədərlər ki, Qurana xatir dərəcəsi yüksəlsin. Çünki behişt Quran ayələrinin sayına görədir və ona deyiləcəkdir ki, oxu və yuxarı qalx. O, da Quran oxuyar və yuxarı qalxar". (Erfan)

***Allah Təala bizləri İmam Musa Kazımın (ə) ardıcıllarından qərar versin.***

# Ölməkdən qorxan varlı şəxs

Çox varlı bir şəxs bilir ki, qısa zamandan sonra öləcək və o ölməkdən çox qorxurmuş. Ölməmişdən əvvəl vəsiyyət edir ki, onu basdıran günü kimsə onunla birlikdə bir gün qəbirdə yatsın və həmən şəxsə bu varlı şəxsin var-dövlətinin yarısı verilsin. Bir kasıb onunla bir gün yata biləcəyini deyir. Həmən insanın peşəsi iplə müxtəlif işlər görmək olub.

Belə olur ki, həmən varlı şəxsin ölüm günü gəlib çatır və o vəfat edir. Onunla birlikdə həmən kasıb şəxs gecəni qəbirdə yatır. Gecə bunlar qəbirdə olan zaman mələklər gəlir və görürlər ki, bir şəxs ölüb digəri isə sağdır və qərar verirlər ki, əvvəl sağ qalanı sorğu-sual etsinlər, çünki ölü onsuz onlarındır. Mələklər başlayırlar həmən yoxsul şəxsə soruşmağa ki, sənin əlindəki ip nədir? Sən bu iplə nə iş görürsən və s. Həmən şəxsin bütün var-yoxu bu ip olduğundan başqa sualda yox idi.

Səhərisi günü varlı şəxsin qohumları bu şəxsi dəvət edib ona pulu vermək istəyəndə kasıb deyir ki, lazım deyil. Mənim olan qalanım bir dənə ip idi bütün gecəni ona aid o qədər sual verdilərsə mənim bu qədər pulum olsa lap başım xarab olar.

Bu həm yumordur, həm də varlı şəxslərin üzərində olan məsuliyyət ilə kasıbların üzərində olan məsuliyyətin fərqli olmasını göstərən bir hekayədir.

# Həccdən gətirilən üzük

*Bir tanışıma həcc ziyarətindən gətirilən bir üzük hədiyyə etmişdilər. Bir gün o mənə yaxınlaşıb barmağındakı üzüyü göstərdi və soruşdu:-*

*Ay hacı, sən bilirsən ki, mən yeyib-içən adamam. Mənə de görüm bu zaman mən bu üzüyü cibimə qoyum ya evdə saxlasam yaxşıdır?*

*Mən soruşdum ki, bəs üzüyün yeyib-içməyə nə maneçiliyi var?*

*O çox ciddi bir ifadə ilə cavab verdi ki, axı həccdən gətirilən üzükdən utanır.*

*Bu dəfə mən lap əsəbiləşdim və dedim ki, rəhmətliyin oğlu, bu boyda Allahdan utanmırsan araq içirsən, indi bu kiçik üzükdənmi utanırsan?*

# Dostdan düşmənə şikayət etməyə utandım

*Dövrün böyük sufilərdindən olan Cüneyd Bağdadi ilə Əbu Bəkr Şibli təxminən eyni günlərdə xəstələnib yatağa düşürlər. Hər ikisi üçün həkim çağrılır.*

*Allahı inkar edən biri olaraq tanınan həkim əvvəlcə Cüneyd Bağdadini müayinə edir və soruşur: "Şikayətin nədir?" Cüneyd Bağdadi "heç bir şey" deyə cavab verərək şikayətini demir. Daha sonra həkim Əbu Bəkr Şiblinin yanına gəlir və eyni sualı ona da verir. Şibli xəstəliyindən uzun-uzadı şikayətlənir. Bir müddət sonra hər iki sufinin səhhəti düzəlir. Görüşdükləri vaxt Cüneyd Bağdadi Şibliyə deyir:*

*- Öz şikayətlərini inkarçı həkimə niyə bu şəkildə ifadə etdin?*

*- Dost olana dünyada belə xəstəliklər verilir, axirətdə isə lütf edilir; düşmənlərə nələr ediləcəyini bilsin istədim. Bəs yaxşı, sənin davranışının hikməti nədir?*

*- Bir hikməti yoxdur, sadəcə olaraq dostdan düşmənə şikayət etməyə utandım.*

# AXUND XORASANİ

## 100 müctəhid yetişdirən alim



*Axund Xorasani kimi tanınan Molla Hüseyn oğlu Məhəmməd Kazım qəməri təqvimilə 1255-ci ildə Məşhəd şəhərində dünyaya göz açıb. Atası Molla Hüseyn din təbliğindən əlavə, Məşhəd-Herat arasında ipək ticarəti ilə məşğul olub. Peşəsilə əlaqədar həmişə səfərdə olan Molla Hüseyn, səfərlərinin birində Kaşanda evlənir. Bu izdivacdan Nəsrullah, Məhəmmədrza, Qulamrza və Məhəmmədkazım (Axund Xorasani) adlı dörd övlad dünyaya gəlir.*

Axund Xorasani 12 yaşında Məşhəd mədrəsəsinə daxil olur. Burada məntiq, ərəb dili qrammatikası, fiqh, üsul elmlərini mənimsəyir. O, 22 yaşında təhsilini davam etdirmək üçün karvanla İraqa səfərə yola düşür. Karvan Səbzivarda oturaq edir. Zamanın böyük filosofu Molla Hadi Səbzivarinin böyük elm məqamından agah olan Məhəmmədkazım, karvandan ayrılaraq alimin yanına gedir. O, qəməri təqvimilə 1277-ci ilin rəcəb, şaban və ramazan aylarını Səbsivar mədrəsəsində qalır. Sonra Tehrana gedərək, 13 ay "Sədr" mədrəsəsində məskunlaşır, Molla Hüseyn Xoyi, Mirzə Əbulhəsən Cilvə kimi böyük alimlərin dərsində iştirak edir. Daha sonra İraqa gedərək Şeyx Ənsari, Mirzə Həsən Şirazinin dərslərinə qatılır.

Axund Xorasani elmi səviyyəsini, mənəvi halını yüksəltmək üçün gecə-gündüz zəhmətə qatlaşır və bu istiqamətdə heç bir çətinlikdən qorxmur. Özü bu barədə deyir: "Yeganə yeməyim təfəkkür idi, lakin yenə də qane olmurdum. Heç vaxt nəyəsə görə gileyim olmadı. Altı saatdan çox yatmırdım. Gecələri oyaq qalırdım. Ulduzlarla dostlaşmışdım. Ac qarına yatmaq çox çətindir".

Alim Kərbəlaya etdiyi səfərlərinin birində Axund Ərdəkaninin dərsində iştirak edir. Dərs əsnasında Axund Ərdəkani Şeyx Ənsarinin bir nəzərini açıqlayıb tənqid edir. Axund Xorasani Nəcəfə qayıtdıqdan sonra Ərdəkaninin iradlarını müəllimilə müzakirə edir. Şeyx Ənsari Axund Ərdəkaninin bir tənqidini qəbul edir, digərini isə qəbul etmir. Axund Xorasani Ərdakaninin tənqidini müdafiə edir, ustad yenidən onu cavablandırır. Yenidən Axund Xorasani başqa ifadəylə Ərdəkaninin fikrini müdafiə edir. Beləliklə söhbət çox uzanır. Dərsdə iştirak edən yüzlərlə tələbə 25 yaşlı tələbənin belə güclü dəlillərlə ustadla elmi mübahisə etməsindən çox təəccüblənirlər. Tələbələrdən biri digərinə "Bu Axunda (Xorasaniyə) baxın ki, o axundu (Ərdəkanini) müdafiə edir", - deyir. Bu zamandan sonra Nəcəfdə onu "Axund" ləqəbiylə tanıyırlar.

Axund Xorasani 13 il ərzində Şeyx Ənsari, Seyid Əli Şüştəri, Şeyx Razi ibn Məhəmməd Nəcəfi, Mirzayi Şirazi kimi böyük alimlərin dərsində iştirak edir.

Axund Xorasani tələbə vaxtlarında Mirzayi Şirazinin fikirlərinə də irad tutur. Şagirdlə ustad arasında baş verən uzun elmi mübahisə zamanı Axund ustada ehtiram olaraq susur. Sabahı gün dərs başlamazdan öncə Mirzayi Şirazi: "Dünənki mübahisədə Axund haqlı idi", - deyir.

Axund Xorasaninin 3000-ə qədər tələbəsi olduğu və bu tələbələr arasında 100-ə yaxın müctəhidin yetişməsi qeyd edilir. Bu müctəhidlər arasında Seyid Sədrəddin Sədr, Şeyx Əbdülkərim Hairi, Şeyx Məhəmmədhüseyn Naini, Ağabozorg Tehrani, Hüseyn Burucerdi və d. adını çəkmək olar.

Axund Xorasani zöhd və təqvada da böyük nailiyyətlər əldə etmişdi. Hətta qocalıq çağlarında müstəhəb namazları tərk etməməsi deyilir. Axundun qonşularından birinin dediyinə görə, alimin gecə yarısı nalə və sızıltısı hər daşqəlblini belə titrədirdi.

Axund Xorasani çox sadə həyat tərzi sürüb. O üç evli oğlu ilə bir mənzildə qalırmış. Evin darlığından şikayət edən oğlanlarından birinə: "Əgər bu şəhərin evlərini yoxsullar arasında bölsələr, bəlkə bizə bundan daha az düşər", - deyir.

Axund Xorasani xeyli sayda əsərin müəllifidir. Ən məşhur əsəri "Kifayə əl-Üsul" kitabıdır. Kitab hal-hazırda dini mədrəsələrdə Üsul sahəsində tədris olunan ən ali dərsliklərdən biridir.

Alim hicri-qəməri təqvimilə 1329-cu ildə vəfat edib. (HaqqYolu)



# Şeyx Şahabadidən öyüdlər

***Axirət yaşamının iradənlə yaranması lazımdır. Ora ağıl, nəfs və hissi təhsilatın nəticəsidir. Yəni ağlın həqiqi mərifətlər, səhih və saleh inanclarla nurlanmalıdır.***

*İnancın səhih, əxlaqının gözəl, əməllərinin doğru olması Peyğəmbərin (s) inanc, əxlaq və əməllərinə uyğun şəkildə olduqda gerçəkləşmiş olur. Burada əməl etdiyin şeyləri orada qarşına çıxması üzərinə Bərzəx aləmi qurulmuşdur. Qurani-Kərim bu haqda belə buyurur: **“Hər insanın əməlini (işləyib etdiklərini) boynuna bağladıq. İnsan üçün Qiyamət günündə, açılmış olaraq önünə qoyulacaq bir kitab çıxararıq” (İsra surəsi, ayə 13.)***

*Bu mərhələ mülkün dövran hökmüdür ki, duyan (hiss edən, görən, eşidən, bilən) sultandır və hissiyatdan qaynaqlanan hər nə varsa hökmə məhkumdur, lakin onun bərzəx surəti belədir. Burada naməhrəmə baxdı. Baxması ilə hissiyyat sürətinin arasındakı fasilə burada işıq, orada atəş olur.*

*Burada bağlılıq və yaxınlığa meyl vardır, orada iyrənc bir mənzərəylə qarşılaşır və belə deyərsən: **«Ey kaş mənimlə sənin aranda şərqlə qərb arasındakı fasilə qədər uzaqlıq olaydı, sən pis yoldaş və dostsan!» (Zuxruf surəsi 38.)***

*Burada toyuğu qızartma edərək haram yedin və bütün hisslərinlə onun dadını hiss etdin. Orada isə toyuq qızartması yanğındır və bütün hisslərin əzabdadır. Buna görə bəşərin qurtuluşu üçün gələn Peyğəmbər (s) belə buyurmuşdur: **“Haqsızca yetimin mallarını yeyənlər, qarınlarına sadəcə od doldurmaqdadırlar.”** Bu, bir misaldır, ancaq görünüş ümumidir. Burada, zəhmət və yorğunluq vardır. Haqqa ibadət etmək üçün, soyuq havada dəstəmaz almaq, isti havada oruc tutmaq və mala diqqət etməmək vardır. Bərzəxdə isə Haqqın xoşhal olmasını görmək və ilahi nemətlərlə nemətlənmək vardır.*

*Qısacası, axirət həyatının təmini elm və ədəbdir. İstər əməli, istər qəlbi və istərsə də hissi olaraq olsun. Hüzur və qurtuluş iman və əmələ tabedir. “Ey iman edənlər!” yəni ibadət sırasında məbuddan başqasını görməyin. Oradakı azadlıq, buradakı qulluq və bəndəliyin nəticəsidir; nə özünü gör nə də ibadətini!*

*Bərzəx aləminin ən böyük sultanı olan sultanlarından bir digəri də “Ağıl sultanıdır”. Səhih haqq, inanc və ilahi mərifətlərə sahib mömin ilə qarşılaşdıqda “Bəşir və Mübəşşir”dir. Pis, batil inanc sahibi münafiq və kafirlə qarşılaşdıqda isə“Nəkir və Münkər”dir.*

*Qısacası, aləmin imanının batini olan Bərzəx aləminin məqamlarından biri ağlın sultanı olan Bəşir və Mübəşşir mələkləridir. Bərzəx aləminin sultanları hiss sultanı, nəfs sultanı və ağıl sultanlarından təşkil olunmuş hiss, nəfs və ağlın məhsullarıdır.*

*Bərzəx aləmində ağılların imtahanı üçün böyük bir səltənət vardır.*

***Dünya mədrəsə, ənbiya və üləmalar müəllim, səmavi kitablar da dərs kitablarıdır ki, bunların ən üstünü Qurani-Kərimdir. Bunlar olmasına baxmayaraq nə etdin deyə soruşacaqlar. Soruşanlar isə, möminlərə Bəşir, münafiqlərə qorxuducu və xəbərdar edicidir.***

# DƏRBƏND CÜMƏ MƏSCİDİ





***Dərbənd Cümə məscidi — Azərbaycanlıların ibadəti üçün tikilmiş ən qədim məscid olmaqla yanaşı, həm də İslam aləmində ən qədim məscidlərdəndir.***

Sasani imperiyası tərəfindən möhkəmləndirilmiş Dərbənd Yaxın Şərqdə qədim şəhərlərdən biri sayılırdı. VIII əsrdə Müslüm bin Abdul Məliyin başçılığı ilə ərəblərin Qafqaza birinci yürüşləri zamanı şəhər işğal olundu. Ərəblər Dərbəndə xüsusi diqqət yetirmiş, hətta onu Fət-əl əbvat – yəni "Qapılar qapısı" adlandırmışlar. Ərəb sərkərdəsi Məsləmə Suriyadan Dərbəndə 24000 əsgər köçürərək şəhəri 4 hissəyə və ya məhəllələrə ayırdı. Hər məhəllənin öz məscidi inşa olunmaqla yanaşı eyni zamanda hicri tarixi ilə 115-ci ildə (miladi 733-734-cü il) ümumşəhər Cümə məscidi inşa olundu.

Geniş bir meydanda Şərqdən Qərbə doğru istiqamətlənərək düzbucaqlı daş hasarla (67x17m) əhatə olunmuş Cümə məscidinin plan strukturu sütun düzülüşü ilə kvadrat formalı 3 nefə ayrılıb. Məscid şimaldan cənuba doğru istiqamətlənmiş mərkəz xəttin oxvari daş günbəzlə örtülmüş kvadrat formalı zalla tamamlanır. Plan strukturu baxımından məscidin birbaşa analoqu olmayan daxili hissəsi eni istiqamətində çoxsaylı hissələrə bölünərək nəhəng memarlıq orqanizminə dinamik xarakter verir. Burada interyer boyunca meşəsayağı düzülmüş daş sütunlar və onların sonluğunu tamamlayan oxvari taxtabanlar dini tikilinin monumental obrazını bir az da artırır. Məscidin daxili fəza həllinin çoxsaylı neflərə bölünməsi və mərkəzdəkinin geniş formada olub hakim mövqeyə durması interyer kompozisiyasının memarlıq qanunauyğunluğunu qabardır. Simmetrik sistemə malik olan ibadət zalı fasadı və portalı boyunca ornament və Quran ayələri ilə bəzədilmiş təbəqəli mərkəzi zal ilə tamamlanır. Zal ikinci təbəqədən kvadrat formalı əsas üzərinə oturdulan və incə xətli stalaktitli haşiyələrlə əhatələnmiş 14 tilli oxvari tactavanla tamamlanır. İkitəbəqəli zalın möhkəm, üfüqi dayaqları üzərindən yuxarıya doğru istiqamətlənmiş oxvari taxtabanlar sakitlik və möhtəşəmlik yaradır. Cümə məscidinin fasadı sadə divar fonunda iki təbəqəli giriş həllinə malik olan və oxvarı taxtabanla tamamlanan gərilmiş proporsiyalı portalla ciddi və monumental görünür. Bütün məscid günbəzlərinin üzəri gözəl rəsmlərlə bəzədilmişdir. Təbii zəlzələ nəticəsində ciddi zədələnmiş məscid hicri tarixi ilə 770-ci ildə (1368-1369) bakılı memar Tacəddin Musa oğlu tərəfindən hakim Afriburzun zamanında əsaslı təmir olunmuşdur.

**Maraqlıdır ki, ilk ərəb məscidlərini nəzərə almasaq, Dərbənd Cümə məscidi müsəlman dünyasının ən qədim məscidlərindən biridir: İlk məscid 608-ci ildə Məkkədə; 707-ci ildə Məhəmməd peyğəmbərin evinin yerində; 632-ci ildə Canadiyada; VII əsrin 70-ci illərində Sapedə Əl-Cami, Əl-Kəbir adlı məscidi, 687-691-ci illərdə Qüds ətrafında Kubbat əz Səhra, yenə Qüdsdə VIII əsrin əvvəllərində inşa edilmiş əl-Əksa məscidi, 708-ci il Dəməşqdə Validə məscidini və 641-ci ildə Qahirədəki Əmir məscidini qeyd etmək olar. İranda birinci məscid 775-ci ildə Damqanda, Orta Asiyada isə X əsrdə inşa edilib.**





# Azərbaycan - Bakı

